RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 264 (9143) ŞƏNBƏ, 3 dekabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# Azərbaycanın regionları sürətli inkişaf yolundadır

## Müasir yollar salınır, yeni istehsal müəssisələri yaradılır, sosial obyektlər açılır, aqrar sektor modernləşdirilir

Şəkidə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət



2

Oğuz-Şəki avtomobil yolunun yenidənqurmadan sonra açılışı




2

Orta Zəyzid kəndində quru meyvə istehsalı müəssisəsi ilə tanışlıq



2

Şəki Şəhər İcra Hakimiyyətinin yeni inzibati binasına baxış



2

Şəki Xan məscidi kompleksi bərpa olunub



3

"Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu ərazisində aparılan təmir işləri



3



◆ Prezident İlham Əliyevin Şəki və Oğuz rayonlarına səfəri

### Şəki

Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 2-də Şəki rayonuna səfər ediblər.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva Ümummilli Lider Heydər Əliyevin Şəki şəhərindəki abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar. İlham Əliyev Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunun Oğuz-Şəki hissəsinin yenidənqurmadan sonra açılışında iştirak edib.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 2-də Şəkinin Orta Zəyzid kəndində "Green Factory" Məhdud Məsuliyyətli Cəmiyyətinin quru meyvə istehsalı müəssisəsində, Şəki Şəhər İcra Hakimiyyətinin yeni inzibati binasında yaradılan şəraitlə, Şəki şəhərindəki "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu ərazisində və Heydər Əliyev Fondu tərəfindən Şəki Xan məscidi kompleksində aparılmış bərpa işləri ilə tanış olublar.

### Oğuz

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Oğuz rayonuna səfər edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Ulu Öndər Heydər Əliyevin Oğuz şəhərindəki abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub. Oğuzda Daşağıl çayı üzərində "Oğuz-1", "Oğuz-2", "Oğuz-3" kiçik su-elektrik stansiyaları silsiləsinin açılışında və suqəbuledici qurğuların təqdimatında və Heydər Əliyev Fondunun təşəbbüsü ilə Oğuz şəhərində inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçasının istifadəyə verilməsində iştirak edib.

Prezident İlham Əliyev Oğuz rayonunda "Aqroinkişaf-2017" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) "Şəki-Oğuz" Aqroparkında yaradılan şəraitlə və "Şəki-Oğuz" Aqroparkının torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi üzrə görülmüş işlərlə tanış olub.

Sonra "Şəki-Oğuz" Aqroparkında yeni zavodun təməli qoyulub.

Oğuz şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət



5

"Oğuz" kiçik su-elektrik stansiyaları silsiləsi istismara verilib



5

Heydər Əliyev Fondundan körpələrə hədiyyə



5

11 min hektar sahədə yaradılmış "Şəki-Oğuz" Aqroparkı



5

"Şəki-Oğuz" Aqroparkının torpaq sahəsini suvarma suyu ilə təmin edən qurğular işə salınıb



6

"Şəki-Oğuz" Aqroparkında yeni zavodun təməli qoyulub



6

## Prezident İlham Əliyevin Şəki və Oğuz rayonlarına səfəri

# Azərbaycanın regionları sürətli inkişaf yolundadır



## Şəkidə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 2-də Şəki rayonuna səfər ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva Ümummilli Lider Heydər Əliyevin Şəki şəhərindəki abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.

## Oğuz-Şəki avtomobil yolunun yenidənqurmadan sonra açılışı

Dekabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunun Oğuz-Şəki hissəsinin yenidənqurmadan sonra açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına yolun texniki göstəriciləri barədə məlumat verdi.

Bildirildi ki, uzunluğu 47,2 kilometr olan yolun 7,5 kilometri 1-ci texniki dərəcəyə, 26,1 kilometri 2-ci texniki dərəcəyə, 13,6 kilometri isə 3-cü texniki dərəcəyə uyğun yenidən qurulub. Buraya Oğuz və Şəki şəhərlərinə giriş yollarının, həmçinin Şəki dairəvi yolunun əsaslı şəkildə təmiri də daxildir.



Qeyd edildi ki, layihə çərçivəsində yolboyu genişləndirmə işləri icra olunub, yolun köhnə asfalt örtüyü sökülüb, zəruri yerlərdə yararsız qrunt qazılaraq çıxarılıb və əks-dolğu işləri görülüb. Bundan başqa, zəruri yerlərdə müxtəlif diametrlərə malik 144 yeni dairəvi suötürücü boru quraşdırılıb, iki su keçidi və 11,6 kilometr uzunluğunda suaxıdıcı kanallar inşa edilib. Yola üç laydan ibarət yeni asfalt-beton örtüyü döşənib.

Məlumat verildi ki, layihə çərçivəsində Zəyzidçay çayı üzərində yerləşən körpü istismar müddətini başa vurduğu üçün sökülüb və yerində 22 metr uzunluğunda yeni körpü inşa edilib. Daşağıl, Küngüt, Kiş, Qurcanaçay çayları üzərində yerləşən və ümumi uzunluğu 630 metr olan mövcud körpülər isə təmir olunub.

Görülən işlərə paralel olaraq zəruri yerlərdə 408 yol nişanı, 1731 siqnal dirəyi, 7 avtodayanacaq, 12,2 kilometr əyrixətli dəmir tir quraşdırılıb, yolcizgi və yolgöstərici xətlər, piyada zolaqları çəkilib.

Qeyd edək ki, avtomobil yolunun yenidən qurulması ərazidə yaşayan əhalinin daha rahat gediş-gəlişini təmin edərək, yük və sərnişin daşınmasını asanlaşdırmaqla iqtisadiyyatın daha da inkişafına müsbət təsir göstərəcək.

## Orta Zəyzid kəndində quru meyvə istehsalı müəssisəsi ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 2-də Şəkinin Orta Zəyzid kəndində "Green Factory" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) quru meyvə istehsalı müəssisəsində yaradılan şəraitlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov müəssisənin fəaliyyəti barədə dövlət başçısı İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və Leyla Əliyevaya məlumat verdi.

Bildirildi ki, müəssisənin 100 hektar bağ sahəsi var. Həmin ərazidə Fransa, İtaliya və Türkiyədən gətirilmiş 55 mindən çox meyvə ağacından, o cümlədən şaftalı, nektarin, ərik, gavalı, xurma, gilas, alma və alça meyvələrinin bir neçə növündən ibarət bağ salınıb.

Diqqətə çatdırıldı ki, meyvə bağının suvarma suyu ilə təminatı üçün 8 artezian quyusu qazılıb, ümumi həcmi 15 min kubmetr olan sututarları tikilib. Ərazinin fasiləsiz və səmərəli suvarılması məqsədilə 2 su nasosundan ibarət stansiya qurulub, müasir suvarma texnologiyalarının bütün texniki normalarına uyğun damcılama suvarma sistemi yaradılıb.

Müəssisənin ərazisində logistik mərkəz fəaliyyət göstərir. Bu mərkəzə ümumi həcmi min kubmetr olan 9 soyuducu kamera, gündəlik istehsal gücü 3 ton olan qurutma, saatda 5 ton istehsal gücü olan çeşidləmə və qablaşdırma avadanlıqları, anbar binası, ofis və digər yardımçı binalar daxildir.







Məlumat verildi ki, müəssisədə və bağ sahəsində 38 nəfər daimi, 120-150 nəfər mövsümi işçi çalışır. Ümumi dəyəri 7,5 milyon manat olan müəssisənin yaradılması üçün Sahibkarlığın İnkişafı Fondundan 2,5 milyon manat güzəştli kredit götürülüb.

## Şəki Şəhər İcra Hakimiyyətinin yeni inzibati binasına baxış

Dekabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şəki Şəhər İcra Hakimiyyətinin yeni inzibati binasında yaradılan şəraitlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov dövlət başçısı İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və Leyla Əliyevaya binada yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, icra hakimiyyətinin yeni binası zirzəmi qatından və 4 mərtəbədən ibarətdir. Ümumi sahəsi 6080 kvadratmetr olan binada 56 yerlik konfrans zalı, 164 nəfərlik akt zalı və 70 nəfərlik yeməkxana yaradılıb. Həmçinin yeni binada hər cür şəraiti olan 90 iş otağı, kitabxana, muzey, sərgi və toplantı otaqları var. Zirzəmi qatında avtodayanacaq və texniki xidmət sahəsi fəaliyyət göstərir. Binanın həyətyanı sahəsində abadlıq və yaşıllaşdırma işləri görülüb.







## Prezident İlham Əliyevin Şəki və Oğuz rayonlarına səfəri

# Azərbaycanın regionları sürətli inkişaf yolundadır

## Şəki Xan məscidi kompleksi bərpa olunub





Dekabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Heydər Əliyev Fondu tərəfindən Şəki Xan məscidi kompleksində aparılmış bərpa işləri ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov dövlət başçısı İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və Leyla Əliyevaya kompleksdə aparılmış bərpa işləri barədə məlumat verdi.

Bildirildi ki, Şəki Xan məscidi kompleksi əsaslı bərpa işlərindən sonra istifadəyə verilib. Tarixi Şəki Xan məscidində bərpa işləri 2021-ci ilin may ayından etibarən Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib. Heydər Əliyev Fondu bərpa işləri ilə yanaşı, qazıntılar zamanı aşkar olunan və Şəki xanı nəslinə aid olduğu ehtimal edilən skelet nümunələri üzrə tədqiqatların aparılmasına da dəstək göstərib.

Qeyd edildi ki, məscid kompleksi ərazisindəki bərpa işləri Dövlət Turizm Agentliyinin sifarişi ilə Memarlıq və İnşaat Universiteti tərəfindən hazırlanan layihə əsasında aparılıb. Ölkə əhəmiyyətli abidə siyahısında olan məscid xanlıqlar dövrünə (1745-1750-ci illər) aid edilir. Tarixi məlumatlara və üzərində qeyd edilən kitabələrə əsasən, məscid Hacı Məhəmmədhüseyn xan tərəfindən inşa olunub.

Məscidin yanında yerləşən qəbiristanlıqdakı əsas 13 qəbir xan nəslinin nümayəndələrinə aiddir. Qəbiristanlıqda yalnız xan nəslinin nümayəndələri dəfn olunduğundan "Xan qəbiristanlığı" adı verilib.

Diqqətə çatdırıldı ki, məscidin 21 metrlik minarəsi bişmiş kərpic və əhəng məhlulundan istifadə edilməklə inşa olunub. Burada eyvana qalxmaq üçün dairəvi pilləkən var. Məscidin ön fasadında olan tağvari eyvan isə məscidə xüsusi gözəllik verir. Məscidin bərpası layihəsi 1981-ci ildə hazırlansa da, sonrakı illərdə heç bir iş görülməyib.

Heydər Əliyev Fondu tərəfindən 2021-ci ildə başlanan bərpa işləri çərçivəsində əvvəl Şəki şəhərinin "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun ərazisində yerləşən Xan məscidi kompleksində 3D ölçmə işləri aparılıb. Bu işlər məscid kompleksinin ilkin görüntüsünün əldə edilməsi baxımından əhəmiyyətli olub. Ərazidə yerləşən tikililər - məscidin əsas binası və minarə, yardımçı tikililər, kompleks ərazisinin hasarı və orada yerləşən məzarlıq skan edilib, məscidin 3D modeli hazırlanıb. Məscid kompleksinin əldə olunan ilkin görüntüsü əsasında aparılan bərpa işləri zamanı iqlim təsirinə görə yararsız hala düşən kərpiclər yeniləri ilə əvəzlənib, yeri bişmiş kərpiclə yenidən döşənib. Minarədə olan kərpicləri eroziyadan mühafizə etmək üçün xüsusi materiallarla izolyasiya qatı yaradılıb. Eyni zamanda məscidin ilkin tikintisi zamanı olan pəncərələr və Məhəmmədhüseyn xanın istifadə etdiyi qapı bərpa edilib. Memarların rəyi əsasında yerli memarlıq atributlarından olan şəbəkədən istifadə edilməklə pəncərələrdən ikisinin əvvəlki görüntüsü qaytarılıb.




Məscidin tavanının fotosu olmadığından Dövlət Turizm Agentliyinin və layihəçilərin birgə qərarı əsasında Gödək minarə məscidi və Şəki Xan Sarayının tavanında olan şəbəkə quruluşunda yeni tavan yığılıb. Binanın daxili və xarici divarları 1961-ci ilin fotoları əsas götürülərək bərpa olunub.

Məlumat verildi ki, məscidin həyətindəki köhnə su hovuzunun əvəzinə yeni hovuz inşa olunub. Həyətdəki Xan çinarları və digər ağacların ətrafında mühafizə zonası yaradılıb. Layihəyə uyğun olaraq məscidin ərazisində xeyir-şər evi, dəstəmazxana, inzibati otaqlar tikilib. Məscidin qədim giriş darvazası və pilləkənləri, o cümlədən onun cənubunda yerləşən Xan qəbiristanlığındakı qəbir daşları bərpa edilib.

Məsciddə bərpa işləri çərçivəsində 2021-ci ilin iyun ayında mehrabın altı qazılarkən oradan böyük ölçülü sal daşlar aşkar edilmişdi. Bu səbəbdən həmin hissədə bərpa işləri dayandırılmış və Şəki arxeoloji ekspedisiyası tərəfindən yoxlamalar aparılmış, ekspedisiyanın tədqiqatı və qazıntı işləri nəticəsində həmin hissədə qəbir aşkar olunmuşdur. Qəbirdən 52 muncuq və tunc təsbeh başlığının tapılması dəfn olunanın yüksək dini və ya dövlət statuslu şəxs olması ehtimalını yaradırdı. Bu ehtimallar, eləcə də Salman Mümtazın əsərində Şəki xanı Məhəmmədhüseyn xan Müştağın Xan məscidinin mehrabının altında dəfn edilməsinə dair məlumatın olması digər fərqli tədqiqatlarda da bu barədə olan məlumatlar əsas götürülməklə aşkarlanan tapıntılar üzrə yoxlamalar aparılmışdı. Mütəxəssislərə dəstək məqsədilə Heydər Əliyev Fondunun köməyi ilə aşkar olunan skeletdən nümunələr götürülüb, radiokarbon və genetik analizlər aparmaq üçün Böyük Britaniyanın Oksford Universitetinin laboratoriyasına göndərilib. Aşkar olunan skelet nümunələri və məscid ərazisindəki xan nəslinə aid digər qəbirlərdən götürülən nümunələr əsasında Böyük Britaniya ilə yanaşı, Avstriya, Estoniya və Türkiyədə də tədqiqatlar, genetik analizlər aparılıb. Laborator analizlərin nəticəsinə, eləcə də AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun elmi rəyinə əsasən, aşkar edilən qəbirin Şəki xanı Məhəmmədhüseyn xana aid olduğu təsdiqlənib.

Məlumat verildi ki, məscid kompleksinin ərazisində Heydər Əliyev Fondunun dəstəyi ilə muzey də yaradılıb. Muzeydə Şəki xanlığı dövrünə aid fərqli eksponatlar, müxtəlif mənbələrdən toplanan maddi-mədəniyyət nümunələri təqdim olunur. Muzey əyani şəkildə Şəki xanlığının yaranmasının, formalaşmasının milli dövlətçilik tariximizdə xüsusi yerini nümayiş etdirir. İki mərtəbədən ibarət olan muzeyin birinci mərtəbəsində Şəki xanlığı dövrünə aid mis qablar, milli geyimlər, zərgərlik məmulatları, XVIII əsr Şəki tacirlərinin evlərini bəzəyən divar güzgüləri, Şəki adət-ənənəsi üzrə onların qarşısına qoyulan mücrülər, Şəkinin kəlağayı sənətinə aid nümunələr sərgilənir. Muzeyin birinci mərtəbəsində təqdim olunan elektron lövhədə Azərbaycan və ingilis dillərində Şəki xanlığının tarixi, siyasi, sosial-iqtisadi həyatı, mədəniyyəti və Şəki xanları barədə məlumatlar çatdırılır. İkinci mərtəbədə isə Şəki xalçası, müxtəlif xalçaçılıq ləvazimatları, Əbdüllətif Əfəndinin "Şəki xanlarının tarixi" kitabı və Şəki xanlığı dövrünə aid yazılı ədəbiyyatlar, şəbəkə nümunəsi, XVIII əsr Şəki xanlarının dövründə istifadə edilmiş sikkələr, XVIII-XIX əsrə aid silah nümunələri nümayiş etdirilir.

Muzeyin əsas hissələrindən biri ikinci mərtəbədəki xan otağıdır. Həmin otaq Şəki xanı Məhəmmədhüseyn xan Müştağın bu binada ibadət etməsini, ədəbi məclislər təşkil etməsini, müxtəlif qəbullar həyata keçirməsini, şahmat oynamasını əyani şəkildə nümayiş etdirir. Bu hissədə Şəki xanı Məhəmmədhüseyn xan Müştağın təşkil etdiyi ədəbi məclislərdə istifadə olunan ud musiqi aləti, Şəki xanı Məhəmmədhüseyn xanın taxtının tarixi mənbələrdə olan təsvirləri əsasında 2014-2015-ci illərdə hazırlanmış replikası, Şəki Xan Sarayındakı miniatür təsvirlər əsasında hazırlanmış xanın geyimi təqdim olunur. Bununla yanaşı, xan otağını gözəl şahmat oyunu ilə hamını heyran edən Məhəmmədhüseyn xanın şahmat taxtası, onun daim oxuduğu "Qurani-Kərim" bəzəyir. Otaqda XVIII əsrdə istifadə olunmuş Şəki xanlığının bayrağı və Şəki xanı Səlim xanın döyüş bayrağı da nümayiş etdirilir. Xan otağında "Müştaq" təxəllüsü ilə şeirlər yazan və o dövrün məşhur şairləri ilə məktublaşan Məhəmmədhüseyn xanın yazı masası da təqdim olunur.

## "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu ərazisində aparılan təmir işləri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 2-də Şəki şəhərindəki "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu ərazisində aparılan təmir-bərpa işləri ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev qoruqda görülən işlər barədə dövlət başçısı İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və Leyla Əliyevaya məlumat verdi.

Bildirildi ki, qoruğun ərazisində Dövlət Turizm Agentliyi tərəfindən Qala divarları daxilindəki iki abidənin (Rəsm Qalereyası və qoruğun inzibati binası) təmir-bərpa işləri yekunlaşıb. Bu abidələrin hər ikisi XIX əsrdə çar Rusiyası əsgərlərinə məxsus kazarma kimi inşa edilib.




Sonra qoruğun iaşə binasındakı bərpa işləri barədə məlumat verildi. Qeyd edildi ki, XIX əsrdə inşa edilmiş və hazırda dövlət mühafizəsinə götürülmüş tarixi bina ənənəvi Şəki memarlığı üslubunda tikilib. Təəssüf ki, sovet dövründə bu binada xəstəxana fəaliyyət göstərib və nəticədə onun memarlıq irsi tamamilə pozulub, bir sıra əlavələr edilib. Bu memarlıq abidəsi hazırda tarixi memarlıq üslubunda bərpa və konservasiya edilir, daxili tərtibatı iaşə obyekti və tədbirlərin keçirilməsi üçün uyğunlaşdırılır.

Daha sonra qoruğun yeni inzibati binası ilə tanışlıq oldu. Bildirildi ki, qoruğun yeni inzibati binası dövlət mühafizəsinə götürülmüş memarlıq abidəsidir və XIX əsrdə əsgər kazarması kimi inşa edilib. İnzibati bina yerli memarlıq üslubunda, dağ-qaya daşından və bişmiş kərpicdən inşa olunub. Binanın memarlıq irsi qorunmaqla onun fasadı, dam örtüyü, döşəməsi, pilləkənləri bərpa olunub, interyeri inzibati bina üçün uyğunlaşdırılıb. Binada kommunikasiya xətləri, istilik sistemi qurulub, inzibati həyətin fəaliyyəti üçün bütün şərait, fond və arxiv otaqları yaradılıb. İnzibati binanın ümumi sahəsi 324 kvadratmetrdir.

Prezident İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və Leyla Əliyevaya qoruqdakı şəbəkə emalatxanasında görüləcək bərpa işləri barədə məlumat verildi.

Bildirildi ki, şəbəkə emalatxanasının yerləşdiyi bina dövlət mühafizəsinə götürülmüş memarlıq abidəsidir. Binaya ümumi sahəsi 127 kvadratmetr olan əsas və sahəsi 30 kvadratmetr olan yardımçı tikililər daxildir. Bərpa olunan binadan "Şəbəkə evi" emalatxanası kimi istifadə ediləcək. Yeni konsepsiyaya görə "Şəbəkə evi" emalatxanasında sənətkarların fəaliyyət göstərdiyi şəbəkə istehsalı mərkəzi ilə yanaşı, bu sənətin tarixini nümayiş etdirən ekspozisiya zalı, interaktiv turizm təcrübəsi üçün təqdimat otağı, suvenir istehsalı və satışı mərkəzi yaradılacaq. Eyni zamanda burada yeni şəbəkə ustalarının yetişdirilməsi üçün Şəbəkə Təlim-Tədris Mərkəzi fəaliyyət göstərəcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəbəkə ustası ilə söhbət etdilər.

**Prezident İlham ƏLİYEV:** Salaməleyküm.

**Mehriban xanım ƏLİYEVA:** Salam.

**Sənətkar:** Cənab Prezident, bizim işlərdir. Bu bizdə dörd nəsildir davam edir.

**Prezident İlham ƏLİYEV:** Davam edir?

**Sənətkar:** İki oğlumla.

**Prezident İlham ƏLİYEV:** Onlar da məşğuldurlar?

*Ardı 4-cü səh.*

## Prezident İlham Əliyevin Şəki və Oğuz rayonlarına səfəri

# Azərbaycanın regionları sürətli inkişaf yolundadır

## "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu ərazisində aparılan təmir işləri





*Əvvəli 3-cü səh.*

**Sənətkar:** Bəli, məşğuldurlar.

**Prezident İlham ƏLİYEV:** Bu sənət yaşamalıdır.

**Sənətkar:** Burada məktəb də var, yəni uşaqlar məşğul olurlar. İndi burada bu binalar bərpa olunur.

**Prezident İlham ƏLİYEV:** Bəli, burada da tədris mərkəzi olacaq.

**Sənətkar:** Bura şəbəkə emalatxanası olub. Amma biz istəyirik geniş olsun.

**Prezident İlham ƏLİYEV:** Bəli.

**Digər kişi:** Tofiq müəllim bizə söz vermişdi ki, ildə 10 şagird yetişdirəcək.

**Prezident İlham ƏLİYEV:** Mütləq lazımdır. Çünki bu, nadir sənətimizdir.

**Sənətkar:** Deməli, burada hamısı belə xırda-xırda taxta və şüşə parçalarıdır. Yəni burada yapışqan, mismar, heç nə yoxdur.

**Prezident İlham ƏLİYEV:** Bəli, mən bilirəm, yoxdur. Bu, dünyada yeganədir, bundan dünyada yoxdur.

**Sənətkar:** Xan sarayını biz bərpa etmişik.

**Mehriban xanım ƏLİYEVA:** Bunları da özünüz edirsiniz?

**Sənətkar:** Bəli, hamısını özümüz edirik. Amma Xan sarayında baxın, belə çox xırda hissələrdir, biz oranı bərpa edəndə pinsetlə işləmişik.

**Prezident İlham ƏLİYEV:** Xan sarayının da təmirə ehtiyacı var. İndi onunla da məşğul olacağıq. Siz də cəlb olunacaqsınız.

**Sənətkar:** O vaxt Xan sarayında mərmər şüşələr olub, Venesiya şüşələri, bir millimetr. Bu irilər 3 millimetrdir.

**Mehriban xanım ƏLİYEVA:** Bu şüşələr 3 millimetrlikdir.

**Sənətkar:** Qalın şüşələr, mərmər şüşələr budur.

**Prezident İlham ƏLİYEV:** Budur, hə?

**Birinci xanım:** Daha incə.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı.

**Sənətkar:** Çox sağ olun, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Siz sağ olun ki, bu sənəti yaşadırsınız. Biz də əlimizdən gələni edəcəyik ki, sizin üçün daha yaxşı şərait yaradaq.

**Sənətkar:** Siz sağ olun ki, sənətə qiymət verirsiniz.

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm, sağ olun.

Sonra dövlət başçısı və birinci xanım şəkili sənətkarlarla görüşdülər.

**Sənətkar:** Xoş gəlmisiniz, səfa gətirmisiniz. Allah Sizə cansağlığı versin.

**Prezident İlham ƏLİYEV:** Salaməleyküm. Xoş gördük. Sağ olun.

**Mehriban xanım ƏLİYEVA:** Salam. Çox sağ olun gözəl musiqi üçün.

**Sənətkar:** Həmişə Allah yaxşı gündə eləsin hamınızı.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, Allah cansağlığı versin.

**Sənətkar:** Allah Sizə cansağlığı versin, cümlənizə.

**Mehriban xanım ƏLİYEVA:** Sağ olun.

**Prezident İlham ƏLİYEV:** Sizə də, çox sağ olun.

**Fuad NAĞIYEV:** Bunlar da sənətkarlardır, Şəki sənətkarlarıdır.

**Prezident İlham ƏLİYEV:** Salam.

**Sənətkarlar:** Salam, xoş gəlmisiniz. Necəsiniz?

**Prezident İlham ƏLİYEV:** Bu da məşhur Şəki halvası.

**Mehriban xanım ƏLİYEVA:** Şəki halvası.

**Prezident İlham ƏLİYEV:** İşiniz necə gedir? Yaxşıdır?

**Sənətkarlar:** Yaxşıdır, şükür.

**Prezident İlham ƏLİYEV:** Qonaqlar çox gəlir? İndi bunlar hamısı bərpa olunandan sonra daha çox gələcək.

**Sənətkar:** İnşallah, Allah canınızı sağ eləsin.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

**Mehriban xanım ƏLİYEVA:** Sağ olun.

**Sənətkarlar:** Sağ olun.

Dövlət başçısı İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və Leyla Əliyevaya qoruqdakı dairəvi məbəddə aparılan təmir-bərpa işləri barədə də məlumat verildi.

Bildirildi ki, dairəvi məbəd XIX əsrin əvvəllərində tikilmiş və dövlət mühafizəsinə götürülmüş memarlıq abidəsidir. Dairəvi məbədin memarlığı Qafqaz Albaniyasının qədim məbədlərinin memarlıq üslubuna oxşardır. Bina XIX əsrdə pravoslav kilsəsi kimi fəaliyyət göstərib, daha sonra sovet dövründə anbar kimi və digər təyinatlar üçün istifadə edilib. Bina ilkin variantda sırf dairəvi formada olub, daha sonra ona üç tərəfdən köməkçi tikililər əlavə edilib. Bu binada son 30 il ərzində Şəki Xalq Tətbiqi Sənəti Muzeyi fəaliyyət göstərib. Hazırda binada bərpa işləri aparılır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva keçəçi qadın sakin ilə söhbət etdilər.

**Prezident İlham ƏLİYEV:** Salaməleyküm.

**Sakinlər:** Salam.

**Mehriban xanım ƏLİYEVA:** Salam.

**Prezident İlham ƏLİYEV:** Xoş gördük.

**Sakin:** Salam, xoş gördük.

**Məlumat verən şəxs:** Zahid usta alətləri düzəldir.

**Prezident İlham ƏLİYEV:** Salam, bu alətləri sən düzəldirsən? Çox yaxşı. Sizinki də kəlağayıdır?

**Sənətkar:** Bəli.

**Prezident İlham ƏLİYEV:** Yerli ipəkdəndir?

**Sənətkar:** Bəli. Mehriban xanım məni iki dəfə Fransaya aparıb.

**Mehriban xanım ƏLİYEVA:** Bizimlə getmisiniz?

**Sənətkar:** Bəli, sağ olun. Sizə cansağlığı arzulayıram. Sənətimizi də davam etdirməyə çalışırıq.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Sizə də cansağlığı arzulayıram.

**Mehriban xanım ƏLİYEVA:** Sağ olun, sizə uğurlar.

**Sənətkar:** Siz də sağ olun.

Daha bir sənətkarla söhbət oldu.

**Prezident İlham ƏLİYEV:** Salam.

**Fuad NAĞIYEV:** Hüseyn bizim ustamızdır, şəbəkə ustasıdır.

**Hüseyn usta:** Bu işlərdən görmüsünüz. Sizə bir rəhil hazırlamışam, bütöv taxtadan yonulur, dörd parçaya bölünür. Açılır, kitab qoymaq üçündür. Yəni bizim qədim milli əşyadır, qəbul etsəniz, şad olardım.





**Prezident İlham ƏLİYEV:** Əlbəttə. Çox təşəkkürümü bildirirəm. Çox sağ olun.

**Hüseyn usta:** Sağ olun, minnətdaram.

**Mehriban xanım ƏLİYEVA:** Sağ olun.

**Prezident İlham ƏLİYEV:** Salaməleyküm.

**Mehriban xanım ƏLİYEVA:** Salam, xoş gördük.

**Qadın sənətkar:** Salam, bizim Şəkiyə səfa gətirmisiniz. Bu, bizim təkəlduz sənətidir, qədim Şəkiyə məxsus sənətdir. Sənətkar bacım Aysel xanımla bərabər 20 ildir bu sənətlə məşğuluq. Sizin, dövlətimizin bizə qayğısı sayəsində dəfələrlə xarici və yerli sərgilərdə olmuşuq, ICESCO-nun təşkil etdiyi sərgidə 36 ölkə arasında qalib gəlmişik. Bu da bizim keçə sənətidir. Biz veteran ailəsi olaraq bacım Aysel xanımla fikirləşdik ki, bir dövlətin Ali Baş Komandanına necə mənəvi dəstək verə bilərik? Fikirləşdik ki, keçəçilik sənətini yaşadaq, keçə sənətinə nəfəs verək və Azərbaycanda bir ilkə imza atdıq: Keçə sənəti ilə qədim təkəlduz sənətini sintez etdik.

**Prezident İlham ƏLİYEV:** Birləşdirdiniz?

**Qadın sənətkar:** Bəli, bacım Aysel xanımla birgə keçə sənətindən Sizə bir hədiyyə hazırlamışıq. Qələbə rəmzi olan Şuşamız, əgər qəbul etsəydiniz, məmnun olardıq, çox sevinərdik.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun, təşəkkür edirəm.

**Qadın sənətkar:** Fonda verərəm.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Mehriban xanım ƏLİYEVA:** Çox sağ olun.

**Qadın sənətkar:** Bu xüsusilə Qarabağ zonasına aiddir. Şuşada, Kəlbəcər zonasında tərəkəmə həyatı sürülən yerlərdə olub. Düzdür, bizim Şəkidə də olub, yaylaqlarda istifadə ediblər. Yurtalar, məsələn, bu xüsusilə Oğuz türklərini birləşdirən sənətdir. Həmçinin Qobustan işləmişik, sonra bu yunları özümüz rəngləmişik. Bu isə kaftandır, keçmiş qadın kaftanıdır. Onu da özümüz düzəltmişik, bacımla birlikdə. Bu, Qarabağa aid sonabülbüllərdir, həm də Xan sarayımızın naxışıdır. Bu da türk ölkələrinə aid naxışdır, burada Qobu xalqı da var. Bundan başqa, Şəki İpək yolu üzərində yerləşdiyi üçün ipək karvanı işləmişik. Yəni bu sənəti gücümüz çatdığı qədər yaşatmağa çalışırıq.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı iş görürsünüz.

**Qadın sənətkar:** Bu da yun didmək asan olsun deyə fikirləşib, araşdırıb belə bir əhtaş hazırlamışıq, bir az müasir tipli. Yunu rahat açsın deyə.

**Prezident İlham ƏLİYEV:** Texnoloji inkişafdır.

**Mehriban xanım ƏLİYEVA:** Doğrudan da, çox gözəldir. Yəni, bunu ilk dəfə siz sintez etmisiniz?

**Qadın sənətkar:** Azərbaycanda hazırda klassik keçə sənəti ilə məşğul olan bizik. Müasir nuno feltinqlə məşğul olanlar var, ancaq klassiklə yoxdur. Bir az ağır olduğu üçün fiziki güc tələb edir.

**Mehriban xanım ƏLİYEVA:** Çətindir.

**Qadın sənətkar:** Biz pandemiya dövründən başladıq bu işə, hələ ki üç ildir işləyirik. İnşallah, artıracağıq, yəni çalışacağıq ki, sənəti yaşadaq.

**Prezident İlham ƏLİYEV:** Çox gözəl, çox sağ olun.

**Mehriban xanım ƏLİYEVA:** Sağ olun, hədiyyə də çox gözəldir, aparıb Şuşada sərgidə asarıq.

**Qadın sənətkar:** İnşallah, çox sağ olun, təşəkkür edirəm.

**Mehriban xanım ƏLİYEVA:** Sağ olun, çox sağ olun, bacınıza da təşəkkür edirəm.

**Qadın sənətkar:** Çox sağ olun, Allah razı olsun.

Həmçinin məlumat verildi ki, Dövlət Turizm Agentliyi tərəfindən qala divarları daxilində yerləşən bəzi tarixi binalarda təmir-bərpa işləri davam etdirilir. Burada Şəki xanlığı dövrünə aid, ümumi uzunluğu təxminən 1300 metr olan qala divarları yerləşir. Bu qala divarları əvvəlcə Şəki xanları, XIX əsrdə isə çar Rusiyası tərəfindən hərbi məqsədlər üçün istifadə edilib.

Diqqətə çatdırıldı ki, qoruğun memarlıq abidələrindən biri də XIX əsrdə inşa olunmuş əsgər kazarmasıdır və hazırda dövlət mühafizəsinə götürülüb. Bina yerli inşaat materiallarından istifadə olunmaqla, ənənəvi memarlıq üslubunda inşa edilib. Tikili giriş hissədən və əsas zaldan ibarətdir. Hazırda binada bərpa işlərinə başlanılıb və "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun fond otaqları kimi fəaliyyət göstərəcək.

Daha sonra Tarix-Diyarşünaslıq Muzeyində davam edən bərpa işləri barədə məlumat verildi. Diqqətə çatdırıldı ki, Tarix-Diyarşünaslıq Muzeyinin binası dövlət mühafizəsinə götürülmüş, XIX əsrin sonlarında tikilmiş memarlıq abidəsidir. Bu bina XIX əsrdə rus əsgərləri üçün kazarma binası kimi tikilib. Bina ənənəvi yerli tikinti materiallarından (çay daşı və bişmiş kərpic) və Şəki memarlığı üslubunda inşa edilib. Muzeydə təxminən 2461-dən artıq eksponat var. Hazırda binada təmir-bərpa işləri davam edir.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva Rəsm Qalereyasında görülmüş bərpa işləri ilə tanış olublar.

Bildirilib ki, 1982-ci ildən Rəsm Qalereyası kimi istifadə edilən bina dövlət mühafizəsinə götürülmüş memarlıq abidəsidir və Dövlət Turizm Agentliyi tərəfindən 2022-ci ildə bərpa edilib. Binanın tarixi-memarlıq üslubu qorunmaqla onun fasadı, dam örtüyü bərpa edilib, kommunikasiya sistemi tamamilə yenidən qurulub. Qalereya binasının ümumi sahəsi 296 kvadratmetrdir. Bina üç hissədən - giriş, ekspozisiya zalları və inzibati bölmədən ibarətdir.

Məlumat verildi ki, Rəsm Qalereyasının fondunda 254 eksponat saxlanılır. Onlardan 61-i rəsm əsəri və 8-i heykəl olmaqla 69 eksponat hazırda ekspozisiyada sərgilənir, 185-i isə qalereyanın fond otağında mühafizə olunur. Ekspozisiyadakı əsərlər Azərbaycan incəsənət tarixinin, onun mövzu və üslubca müxtəlif istiqamətlərinin, inkişaf dövrlərinin ziyarətçilər tərəfindən daha dərindən başa düşülməsi üçün tarixi ardıcıllıqla sıralanıb. Ekspozisiyadakı incəsənət əsərlərinin mühafizəsi məqsədilə müvafiq temperatur və rütubət rejimi üçün zəruri olan sistem quraşdırılıb.

Qalereyanın birinci zalında görkəmli fırça ustası Maral Rəhmanzadənin "Kəlağayı geyinmiş qadın", ikinci zalda "Zəngəzurda" əsərində yaylağa köç edən sürü və "Qaragöl" əsəri (Laçın rayonunda, Azərbaycan ilə Ermənistan arasında sərhəddə yerləşən göl), üçüncü zalda isə mərkəzi divarda Azərbaycanın görkəmli rəssamları Altay Sadıqzadənin "Sahil", Sakit Məmmədovun "Şərq" və Elbəy Rzaquliyevin "Qırmızı atlılar" əsərləri nümayiş olunur.

Tarix-Memarlıq Qoruğu ilə tanışlıqdan sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şəki şəhərinin sakinləri ilə söhbət etdilər, xatirə şəkilləri çəkdirdilər.

**Kişi sakin:** Allah canınızı sağ eləsin. Gələn ayaqlarınız var olsun. Allah Sizin ömrünüzü uzun eləsin.

**Prezident İlham ƏLİYEV:** Allah sizə cansağlığı versin.

**Kişi sakin:** Allah Sizi qorusun! Allah bütün Azərbaycanı qorusun!

**Prezident İlham ƏLİYEV:** Amin!

**Kişi sakin:** Fateh İlham Əliyev.

**Başqa kişi sakin:** Bizə də nəsib oldu əlinizi sıxmaq.

**Kişi sakin:** Allah canınızı sağ eləsin. Gələn ayaqlarınız var olsun. Allah ömrünüzü uzun eləsin. Allah Sizi də, oğlunuzu da xoşbəxt eləsin.

**Mehriban xanım ƏLİYEVA:** Çox sağ olun. Bütün Azərbaycan xalqı sağ olsun.

**Kişi sakin:** Sizə minnətdarıq, Sizə təşəkkür edirik.

**Mehriban xanım ƏLİYEVA:** Çox sağ olun.

**Kişi sakin:** Yolunuz açıq olsun, sağ-salamat gedin.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

**Sakinlər:** Allah Sizi qorusun, uğurlar olsun!

## Prezident İlham Əliyevin Şəki və Oğuz rayonlarına səfəri

# Azərbaycanın regionları sürətli inkişaf yolundadır

## Oğuz şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Oğuz rayonuna səfər edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Ulu Öndər Heydər Əliyevin Oğuz şəhərindəki abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.



## "Oğuz" kiçik su-elektrik stansiyaları silsiləsi istismara verilib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Oğuzda Daşağıl çayı üzərində "Oğuz-1", "Oğuz-2", "Oğuz-3" kiçik su-elektrik stansiyaları silsiləsinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlət başçısına kiçik su-elektrik stansiyaları haqqında məlumat verdi.

Bildirildi ki, alternativ və bərpaolunan enerji mənbələrinin əhatəsinin genişləndirilməsi, azalmaqda olan su ehtiyatlarından səmərəli istifadə, təbii qaza qənaət, ətraf mühitin qorunması və "yaşıl enerji"nin prioritet istiqamət seçilməsi ilə bağlı Prezident İlham Əliyevin qarşıya qoyduğu tələblərə uyğun olaraq "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Oğuz rayonunun Daşağıl çayı üzərində 5 kilometr məsafədə kaskad üsulla 3 yerdə ümumi gücü 3,6 meqavat olan kiçik su-elektrik stansiyasından ibarət hidroqovşaq yaradılıb, bu stansiyalarda ümumilikdə 8 hidroaqreqat quraşdırılıb. Baş Daşağıl kəndində hər üç stansiyanın mənbəyi olaraq suqəbuledici və sel sularının ötürülməsi üçün sutullayıcı qurğu inşa edilib. Bu qurğunun yaradılması "yaşıl enerji"nin istehsalı ilə yanaşı, rayonun su təchizatına da töhfəsini verib.

Qeyd edildi ki, pilləli üsulla tikilən üç kiçik su-elektrik stansiyasında il ərzində 15 milyon kilovat-saatadək elektrik enerjisinin alınması mümkündür. Əhalisi 44 min nəfər olan Oğuz rayonunun enerji tələbatı 5-6 meqavat təşkil edir ki, mövsümi olaraq onun yarı hissəsini məhz bu elektrik stansiyaları qarşılaya biləcək. Ekoloji cəhətdən daha təmiz və qənaətli enerji istehsal edəcək "Oğuz" kiçik su-elektrik stansiyaları silsiləsinin istismara verilməsi regionda yeni iş yerlərinin açılması ilə yanaşı, "yaşıl enerji" nisbətinin bir qədər də yüksəlməsinə səbəb olub.

Məlumat verildi ki, hər üç elektrik stansiyası rəqəmsal qaydada "Azərenerji"nin SCADA dispetçer sisteminə qoşularaq Azərbaycanın ümumi enerji sisteminə inteqrasiya edilib.

Dövlət başçısı elektrik stansiyalarını işə saldı.

Onu da vurğulayaq ki, Prezident İlham Əliyevin "yaşıl enerji" strategiyasına uyğun olaraq son 2 ildə ölkəmizin istər işğaldan azad edilən, istərsə də digər ərazilərində ümumi gücü 50 meqavatdan artıq olan 14 kiçik su-elektrik stansiyası yaradılıb və yaradılmaqdadır.





## Heydər Əliyev Fondundan körpələrə hədiyyə

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Oğuz şəhərində inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçası dekabrın 2-də istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Oğuz Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Qurbanov dövlət başçısına məlumat verdi ki, ərazisi 0,4 hektar, ümumi sahəsi 3013 kvadratmetr olan bağçada 32 otaq vardır. Binada 5 qrup otağı, həkim bölməsi, musiqi zalı, yeməkxana, mətbəx, gimnastika, kompüter, metodist və yardımçı otaqlar yaradılıb.

Qeyd edildi ki, bina müasir avadanlıqlar, inventar və mebel dəstləri, videomüşahidə, yanğın əleyhinə təhlükəsizlik, eyni zamanda mərkəzləşdirilmiş istilik sistemləri ilə təchiz olunub. Həyətyanı sahədə abadlıq və yaşıllaşdırma işləri görülüb, müasir işıqlandırma sistemi yaradılıb və uşaqlar üçün beş söhbətgah quraşdırılıb.

Prezident İlham Əliyev qrup otaqları, oyun zalı, yeməkxana və həyətyanı sahədə yaradılmış şəraitlə tanış oldu.







## 11 min hektar sahədə yaradılmış "Şəki-Oğuz" Aqroparkı



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Oğuz rayonunda "Aqroinkişaf-2017" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) "Şəki-Oğuz" Aqroparkında yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki "Aqroinkişaf-2017" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Ruslan Sadıxov dövlət başçısına aqroparkın fəaliyyəti barədə məlumat verdi.



Qeyd edildi ki, Şəki rayonunun ərazisində 9700 hektar və Oğuz rayonunun ərazisində 1300 hektar olmaqla, ümumilikdə 11 min hektar sahədə yaradılmış aqropark bağçılıq və əkinçilik üzrə fəaliyyət göstərir. Burada əsasən qoz, badam və zeytun bağları salınır və taxıl bitkiləri əkilir. Layihənin ümumi dəyəri 30 milyon manatdır. Zəruri infrastrukturun yaradılmasına 67,8 milyon manat dövlət əsaslı vəsaiti qoyulmuşdur.

Bildirildi ki, 2017-ci ildən başlayaraq "Aqroinkişaf-2017" MMC tərəfindən Azərbaycanda sənaye üsulu ilə qoz istehsalını həyata keçirmək üçün ABŞ-nin fermer təsərrüfatlarının və Avstraliyanın "Webster" şirkətinin təcrübəsi əsas götürülüb.

Ardı 6-cı səh.

## Prezident İlham Əliyevin Şəki və Oğuz rayonlarına səfəri

# Azərbaycanın regionları sürətli inkişaf yolundadır

## 11 min hektar sahədə yaradılmış "Şəki-Oğuz" Aqroparkı



*Əvvəli 5-ci səh.*

Aqroparkda 2 min hektar ərazidə damcı suvarma sistemi qurulub, 3 meteostansiya, ofis binaları, fitolaboratoriya, ting istehsalı üçün soyuducu kameralar, mexanizasiya sahələri və anbarlar tikilib.

Prezident İlham Əliyevə aqroparkda yetişdirilən məhsullar təqdim olundu.

Diqqətə çatdırıldı ki, ərazidə min hektarlıq badam bağının salınması işlərinə başlanılıb. Hazırda 4 badam növü üzrə 160 hektar bağ salınıb və onun ilin sonunadək 300 hektara çatdırılması nəzərdə tutulub. Bu il ilk dəfə olaraq "AzBadam" şirkətinə 1,2 ton məhsul satılıb.

Hazırda 2 zeytun növü üzrə 225 hektardan çox zeytun bağları salınıb və onun 300 hektara çatdırılması nəzərdə tutulub. "Zirə Zeytun" şirkətinə ilk olaraq 2,6 ton zeytun satılıb. Burada kiçikhəcmli zeytun yağı emalı sahəsinin yaradılması nəzərdə tutulub.

Məlumat verildi ki, 9 min hektar sahədə yüksəkkeyfiyyətli buğda istehsalı təşkil edilib, 30 min tonluq silos qurğuları tikilib və lazımi infrastruktur qurulub. Görülən aqrotexniki tədbirlər nəticəsində hektardan orta məhsuldarlıq 1,5 ton, ayrı-ayrı hallarda 4 ton təşkil edib. Təsərrüfatı yüksəkkeyfiyyətli toxumla təmin etmək üçün ildə 2 min tona yaxın toxum yetişdirilərək emal olunur.

Hazırda 160 nəfər daimi və 200 nəfər mövsümi iş yerlərinə cəlb edilib. Təsərrüfat GPS qurğuları quraşdırılmış 31 traktor, 4 kombayn, müasir tipli 4 çiləyici, 55 müxtəlif qoşqu və avadanlıqlarla təmin olunub.

Dövlət başçısı aqroparkın ərazisində ağac əkdi.

## "Şəki-Oğuz" Aqroparkının torpaq sahəsini suvarma suyu ilə təmin edən qurğular işə salınıb

Dekabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Şəki-Oğuz" Aqroparkının torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi üzrə görülmüş işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin (ASC) sədri Zaur Mikayılov dövlət başçısına məlumat verdi.

Bildirildi ki, "Şəki-Oğuz" Aqroparkının torpaq sahələrini suvarma suyu ilə təmin etmək üçün işçi layihəsi "Azdövsutəslayihə" İnstitutu tərəfindən tərtib olunub. Layihənin ümumi dəyəri 58 min 998 manatdır.

Məlumat verildi ki, Şəki rayonu ərazisində Türyançay üzərində saniyədə 109,6 kubmetr suötürmə gücü olan baş suqəbuledici qurğu, sudurulducu hovuz və onu qidalandıran nov kanal, düzbucaqlı beton kanal, nasos stansiyasının su götürdüyü hovuz, 4 aqreqatlı stasionar nasos stansiyası, 8,142 kilometr uzunluğunda magistral basqılı boru kəməri, tutumu 700 min kubmetr olan məcradan kənar sututar, gil əsaslı dəmir-beton üzlüklü torpaq bənd, qurğularla birlikdə 25,150 kilometr uzunluğunda təzyiqli



magistral və paylayıcı boru kəmərləri, səth sularının kənarlaşdırılması üçün 17,6 kilometr uzunluğunda açıq kollektor və suyığıcılar tikilib.

Eyni zamanda "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən nasos stansiyasının xarici elektrik təchizatı üzrə 14 kilometr uzunluğunda 35 kVt-luq ikidövrəli elektrik xətti və 16 min kVt gücündə 2 transformator yarımstansiyası inşa edilib.

Diqqətə çatdırıldı ki, Oğuz rayonu ərazisində Ağçay üzərində suqəbuledici qurğu inşa edilib, 10,2 kilometr uzunluğunda metal boru, 160 metr uzunluğunda təmizləyici polad boru xətləri çəkilib və tutumu 2500 kubmetr olan basqılı su hovuzu tikilib.

Dövlət başçısı aqroparkın torpaq sahəsini suvarma suyu ilə təmin edən qurğuları işə saldı.

## "Şəki-Oğuz" Aqroparkında yeni zavodun təməli qoyulub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Oğuz rayonunda "Şəki-Oğuz" Aqroparkının qoz məhsulunun qərzəkdən təmizlənməsi, yuyulması və qurudulması zavodunun təməlini qoyub.

AZƏRTAC xəbər verir ki, "Aqroinkişaf-2017" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Ruslan Sadıxov dövlət başçısına zavodun layihəsi barədə məlumat verdi.

Bildirildi ki, əldə olunmuş məhsulun beynəlxalq standartlara uyğun şəkildə satışını təşkil etmək məqsədilə qozun yuma, qurutma, çeşidlənmə və qablaşdırma zavodu ABŞ şirkəti ilə birgə layihələndirilib və avadanlıqla təchiz edilməsi üçün müqavilə bağlanıb. İki istehsal xətti yaradılacaq zavodun tikintisi üçün 4 hektar ərazi ayrılıb.



Qeyd edildi ki, ümumilikdə 2 min hektar bağdan ilkin olaraq 10 min ton qoz istehsal edilməsi nəzərdə tutulub. Eyni zamanda qoz növləri üzrə tingçilik təsərrüfatı yaradılıb. Məhsulların yığılma və qurudulma vaxtı 40 gündür. Qoz məhsulunun qurudulması üçün nəzərdə tutulmuş 80 metal qutunun həcmi 400 tondur. Məlumat verildi ki, zavodda ilkin olaraq 40 yeni iş yerinin yaradılması nəzərdə tutulur. Prezident İlham Əliyev yeni zavodun təməlini qoydu.

## Birinci vitse-prezident Mehriban xanım Əliyeva Şəkidən paylaşımlar edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva özünün rəsmi instaqram hesabında Şəkidən paylaşımlar edib.

AZƏRTAC xəbər verir ki, paylaşımlarda qeyd edilib: "Şəkiyə gedərkən", "Şəki Xan məscidi kompleksində. 02.12.2022".

## Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyana

Əlahəzrət!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Biz Birləşmiş Ərəb Əmirlikləri ilə qarşılıqlı etimad və dəstəyə əsaslanan dostluq münasibətlərimizə xüsusi əhəmiyyət veririk. Ötən otuzillik dövr ərzində dini və mədəni köklərlə bir-birinə bağlı olan ölkələrimiz arasında əlaqələr möhkəmlənmiş, qarşılıqlı maraq doğuran müxtəlif sahələrdə əməkdaşlığımız dinamik və davamlı şəkildə inkişaf etmişdir.

İnanıram ki, dövlətlərarası münasibətlərimizin daha da inkişafı, həm ikitərəfli, həm də çoxtərəfli əsasda əməkdaşlığımızın genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, Birləşmiş Ərəb Əmirliklərinin dost xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2022-ci il*

## Fərəh ƏLİYEVA: "Azərbaycanda bütün xalqlar sülh və dostluq şəraitində yaşayırlar"

Dekabrın 2-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində (BBMM) Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyevanın ölkəmizdə yaşayan və fəaliyyət göstərən etnik icmaların rəhbərləri ilə görüşü keçirilib.

Multikulturalizm Mərkəzinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Bakı Dağ Yəhudiləri Dini İcmasının, Samur Ləzgi Mədəniyyət Mərkəzinin, Avropa yəhudiləri dini icmasının, Talış icmasının, Azərbaycan-Avar İctimai Birliyinin, Alban-udi xristian dini icmasının, Azəri Tat Mədəniyyət Mərkəzinin, Azərbaycanda yaşayan axıska türklərinin "Vətən" İctimai



Birliyinin, Gürcü yəhudiləri dini icmasının, Kürd icmasının, "Buduq" Xeyriyyə Cəmiyyətinin, Azərbaycan-Ukrayna Konqresi İctimai Birliyinin, Azərbaycan-Bolqarıstan Dostluğunun İnkişafına Yardım İctimai Birliyinin rəhbərləri, eləcə də talış dilində nəşr olunan "Dodo" və Azərbaycan, rus, ləzgi dillərində nəşr olunan "Samur" qəzetinin baş redaktorları da iştirak ediblər.

Tədbiri açan BBMM-in icraçı direktoru Rəvan Həsənov ölkəmizdə bütün xalqların nümayəndələrinə dövlət səviyyəsində eyni şəraitin yaradıldığını vurğulayıb. Bildirilib ki, Multikulturalizm Mərkəzi öz fəaliyyətini hər zaman azsaylı xalqların nümayəndələri ilə əlaqəli şəkildə qurur. Ölkəmizdə yaşayan və fəaliyyət göstərən müxtəlif xalqların həyatı, mədəniyyəti və adət-ənənələrinin işıqlandırılması xüsusi layihələrlə, eləcə də nəşrlərlə həyata keçirilir.

Sonra çıxış edən Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Azərbaycan multikulturalizm modelinin üstünlüklərini qeyd edib, ölkəmizdə bütün xalqların sülh və dostluq şəraitində yaşamasından danışıb. O, 44 günlük Vətən müharibəsi dövründə milli həmrəyliyin qalib gəlməsi məsələsinə xüsusi toxunub.

Daha sonra çıxış edən BBMM-in Himayəçilər Şurasının sədri Kamal Abdulla mərkəzin yarandığı gündən dövlətin multikulturalizm siyasətinə uyğun olaraq aktiv şəkildə fəaliyyət göstərdiyini bildirib. Qeyd edilib ki, düşmən qüvvələr ölkəmizdəki sabitliyin pozulmasına çalışsalar da, buna nail ola bilmirlər və bilməyəcəklər.

Çıxışlardan sonra etnik icma nümayəndələri mövzu ilə bağlı fikirlərini bölüşüblər. Onlar Azərbaycanı vətənləri kimi sevdiklərini, öz fəaliyyətlərini ölkəmizin uğurlu gələcəyi və inkişafı istiqamətində qurduqlarını bəyan ediblər. 44 günlük Vətən müharibəsi dövründə olduğu kimi, bu gün də milli birlik nümayiş etdirdiklərini vurğulayan icma nümayəndələri Azərbaycandakı multikultural mühitdən, dövlətin bu istiqamətdə həyata keçirdiyi uğurlu siyasəti dəstəklədiklərindən də söz açıblar. Multikulturalizm Mərkəzinin fəaliyyəti, eləcə də qurumun etnik icmalarla əlaqələri yüksək qiymətləndirilib.

Sonda ölkəmizdə yaşayan və fəaliyyət göstərən etnik icmaların rəhbərləri öz fəaliyyətləri ilə bağlı təkliflərini Fərəh Əliyevanın diqqətinə çatdırıblar.

Milli Məclisin iclasında

# Fransanın qanunvericilik orqanları siyasi avantüra meydanına çevrilib

## Bu ölkə tərəfindən törədilmiş soyqırımı cinayətləri bəşəriyyət tarixində silinməsi mümkün olmayan qara ləkədir

Dekabrın 2-də spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib.

İclası açan parlamentin sədri bildirib ki, Fransa Senatının 2022-ci il noyabrın 15-də Azərbaycanla bağlı qəbul etdiyi bədxah qətnamənin ardınca, bu ölkənin Milli Assambleyası da noyabrın 30-da ölkəmizə qarşı qərəzli, qeyri-obyektiv və ədalətsiz bir akt qəbul edib. "Hesab edirik ki, bu çirkin niyyətli siyasi aksiya dövlətimizin ərazi bütövlüyünü və suverenliyini hədəf almaqla yanaşı, beynəlxalq hüquq normalarına və prinsiplərinə açıq hörmətsizlikdir. Ona görə də biz Fransa Milli Assambleyasının bu qətnaməsini də qəti şəkildə rədd edir və onun bu addımını siyasi riyakarlıq kimi qiymətləndiririk. Düşünürük ki, Fransa Senatının və Milli Assambleyasının qəbul etdiyi bu qətnamələr aydın şəkildə Fransanın qanunvericilik orqanlarının siyasi avantüra meydanına çevrildiyini göstərir" - deyə Sahibə Qafarova diqqətə çatdırıb.

### Təxribatçılar erməni şovinist ideologiyasının məqsədlərinə xidmət edirlər

Spiker qeyd edib ki, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 ilə yaxın işğalı dövründə münaqişənin dinc yolla həlli üçün səylərin heç bir nəticə verməməsinin əsas səbəbi təcavüzkar dövlətin öz adı ilə çağırılmaması, vasitəçilik missiyasını yerinə yetirən dövlətlər və xüsusən də Fransa tərəfindən ikili standartlara yol verilməsi, işğalçı dövlətlə işğala məruz qalan dövlətin bir tutulmasıdır. Bu gün isə Fransanın hakimiyyət orqanlarının, o cümlədən parlamentin hər iki palatasının təxribatçı addımları Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına və sülh gündəliyinin həyata keçməsinə böyük zərbə vurur, erməni şovinist ideologiyasının məqsədlərinə xidmət edir, regionu yeni təhlükələrə yönləndirir.

"Ona görə də hesab edirik ki, populist siyasi baxışlar əsasında Fransanın daxili siyasi gündəliyinin və müxtəlif lobbi dairələrinin maraqlarının Cənubi Qafqaz regionuna daşınması qəbuledilməzdir. Böyük riyakarlıqla Azərbaycanın Ermənistana qarşı müharibə cinayətləri törətməkdə ittiham edildiyi bu qətnamədə Ermənistanın ölkəmizə qarşı 30 il davam edən işğalçılıq və etnik təmizləmə siyasətinə, Xocalı soyqırımına, işğal dövründə ölkəmizin 9 şəhərinin və 300-dən artıq kəndinin viran edilməsinə  yer verilmir. Həmçinin uydurma sənədi hazırlayan və onu dəstəkləyən Fransa Senatının və Milli Assambleyasının üzvləri 44 günlük Vətən müharibəsi zamanı Azərbaycanın şəhərlərinin ballistik raketlərlə atəşə tutulmasına, total minalama və mina terroru siyasətinə, itkin düşmüş 4 min nəfərə yaxın vətəndaşımızın taleyinə, kütləvi məzarlıqların yerləri barədə Ermənistan tərəfindən məlumat verilməməsinə göz yumurlar. Əlbəttə, sadalanan faktların özü belə Azərbaycana qarşı təşkil olunan bu ucuz siyasi sifarişin məqsədlərini açıq şəkildə göstərir", - deyə Milli Məclisin Sədri bildirib.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, biz burada dünyanın müxtəlif bölgələrində 50-dən artıq dövlətin ərazisini işğal etmiş, sərvətlərini talamış, xalqlarını uzun illər əsarətdə saxlamış Fransanın törətdiyi vəhşiliklər, insanlıq əleyhinə cinayətləri, eləcə də müharibə cinayətləri haqqında danışmaq istəmirik. Yaxşı məlumdur ki, Fransanın öz tarixi müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlər ilə zəngindir və bu faktlar hər kəsə məlumdur. Bu ölkə tərəfindən törədilmiş soyqırımı cinayətləri Fransanın siyasi tarixində, eləcə də bəşəriyyət tarixində silinməsi mümkün olmayan qara ləkədir.

Spiker Sahibə Qafarova qeyd edib ki, müstəqil Azərbaycan Respublikası bütün ölkələrlə münasibətləri hüquq bərabərliyi və qarşılıqlı hörmət əsasında inkişaf etdirir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımızın 44 günlük Vətən müharibəsində əldə etdiyi böyük Zəfər ərazi bütövlüyümüzün və ədalətin bərpasını təmin edib.

Çıxışının sonunda Milli Məclisin Sədri bildirib ki, bu gün Azərbaycan öz əzəli, tarixi torpaqları olan Qarabağda və Şərqi Zəngəzurda böyük quruculuq və bərpa işləri aparır. Fransa parlamentinin üzvləri Cənubi Qafqazda baş verən hadisələrin təhrif edilməsi cəhdlərindən əl çəkməli, Azərbaycanla Ermənistan arasında sivil dövlətlərarası münasibətlərin qurulması üçün yaranmış tarixi imkanın qarşısını ala bilən hərəkətlərə son qoymalıdırlar.





### Fransa Azərbaycanın yaratdığı yeni reallıqlarla barışa bilmir

Sonra cari məsələlərin müzakirəsi aparılıb. Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev, komitə sədrləri Ziyafət Əsgərov, Musa Quliyev, Hicran Hüseynova, deputatlardan Pərvin Kərimzadə, Rafael Hüseynov, Nurlan Həsənov, Nigar Arpadarai, Cavanşir Feyziyev, Soltan Məmmədov, Elnur Allahverdiyev, Emin Hacıyev, Arzu Nağıyev, Naqif Həmzəyev, Məzahir Əfəndiyev Fransa Milli Assambleyasının noyabrın 30-da qəbul etdiyi qərəzli qətnaməyə münasibət bildiriblər. Deputatlar bu qətnaməni siyasi riyakarlıq kimi qiymətləndiriblər. Çıxışlarda Azərbaycana qarşı qəbul edilən bu qətnamə qeyri-obyektiv, ədalətsiz və qərəzli, habelə beynəlxalq hüquq normalarına hörmətsizlik və təxribat xarakterli bir sənəd kimi dəyərləndirilib. Qeyd olunub ki, bu, Fransanın ikitərəfli münasibətlərə vurduğu növbəti zərbədir. Cənubi Qafqazdakı reallıqları tamamilə təhrif edən, Azərbaycanla Ermənistan arasında davamlı sülhün əldə edilməsi səylərinə kölgə salan bu sənəd Fransanın qərəzli siyasətinin daha bir təzahürüdür.

Bildirilib ki, müxtəlif ölkələrdə soyqırımlara imza atmış bir ölkənin başqa dövlətləri hərbi təcavüzdə ittiham etməyə haqqı yoxdur. Fransa Milli Assambleyasının qəbul etdiyi qətnamənin bu ölkənin Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi Qələbənin yaratdığı yeni reallıqlarla barışa bilmədiyini bir daha təsdiq edir. Millət vəkilləri Fransa parlamentinin hər iki palatasının göstərdiyi bu təşəbbüslərin bölgədə sülhün bərqərar olmasına, xalqların rifahına və təhlükəsizliyə xidmət etmədiyini söyləyiblər. Deputatlar bu məsələ ilə bağlı bir sıra təkliflərlə çıxış ediblər.

Milli Məclisin Sədri Sahibə Qafarova Fransa Senatının, Milli Assambleyasının qəbul etdikləri qətnamələrə cavab verildiyini bildirib, deputatların səsləndirdikləri fikirlərə, dəstəklərə görə təşəkkürünü ifadə edib.

Sonra parlamentin spikeri diqqətə çatdırıb ki, Milli Məclisin bir neçə üzvü Yeni Azərbaycan Partiyasının 30 illiyi münasibəti ilə Prezident İlham Əliyev tərəfindən təltif olunublar. Sahibə Qafarova onlara təbriklərini çatdırıb, ölkənin ictimai-siyasi həyatındakı fəaliyyətlərində növbəti uğurlar arzulayıb.

### Parlamentlərarası əlaqələr üzrə 12 yeni işçi qrup yaradılır

Daha sonra Milli Məclisin Sədri bildirib ki, bugünkü iclasın gündəliyinə 18 məsələ daxil edilib. Gündəliyin birinci məsələsi Milli Məclisin qərar layihəsidir və bu, parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqındadır. O qeyd edib ki, 12 yeni qrupun yaradılması nəzərdə tutulur.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Nigar Arpadarai  "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin qərarında dəyişikliklər edilməsi barədə qərar layihəsi barədə məlumat verib. O, ölkə Prezidentinin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artdığını vurğulayıb. Deputat ölkəmizin Qoşulmama Hərəkatının sədri olaraq təşəbbüslərlə çıxış etdiyini, Avropanın təhlükəsizlik məsələsinə töhfələr verdiyini bildirib. Bütün tərəfdaşlarımızla yüksək səviyyədə münasibətlərimizin olduğunu deyən deputat parlamentlərarası əlaqələr üzrə işçi qruplarının yaradılması və onların rəhbərlərinin seçilməsi haqqında qərar layihəsinin təmsil etdiyi komitə tərəfindən dəstəkləndiyini söyləyib.

Sonra məsələ ilə bağlı müzakirələrdə komitə sədri Siyavuş Novruzov, deputatlardan Hikmət Məmmədov, Cavid Osmanov, Elman Nəsirov, Fəzail Ağamalı çıxış ediblər. Bildirilib ki, parlamentin sədri başda olmaqla parlamentlərarası əlaqələr üzrə işçi qrupları tərəfindən 44 günlük vətən müharibəsində və postmüharibə dövründə Azərbaycan Prezidentinin apardığı uğurlu siyasət davam etdirilib, Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə çatdırılıb.

Çıxışlarda yeni parlamentlərarası qrupların yaradılmasının, bu istiqamətdə fəaliyyətin daha da genişləndirilməsinin əhəmiyyətindən bəhs edilib. Azərbaycanın dünyada etibarlı tərəfdaş ölkəyə çevrildiyini deyən deputatlar Milli Məclisin digər ölkələrin parlamentləri ilə sıx əlaqələr qurduğunu söyləyiblər. Millət vəkilləri Qoşulmama Hərəkatına üzv dövlətlərlə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının sayının artırılmasının parlament diplomatiyasının daha da güclənməsinə, milli maraqların müdafiəsinə, ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsinə xidmət edəcəyini deyiblər.

Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, onun rəhbərliyi ilə parlament nümayəndə heyətinin rəsmi səfərlərində parlamentlərarası əlaqələr üzrə işçi qruplarının nümayəndələri iştirak edirlər. O qeyd edib ki, parlamentlərarası əlaqələrdə prioritetlər var. Biz Prezidentin xarici siyasətini parlament səviyyəsində həyata keçiririk.

Müzakirələrin sonunda "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin qərarında dəyişikliklər edilməsi barədə qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikası qanununun layihəsini (ikinci oxunuş) müzakirəyə təqdim edib. Bildirib ki, qanunun hazırlanmasında beynəlxalq təşkilatların və bir sıra ölkələrin təcrübəsi öyrənilib. Qanun layihəsinə əsasən dövlət-özəl tərəfdaşlığı deyəndə - dövlət xidmətlərinin göstərilməsinə, eləcə də həmin xidmətlərin göstərilməsi ilə bağlı infrastrukturun yaradılmasına və idarəedilməsinə dair dövlət tərəfdaşı ilə özəl tərəfdaşın birgə fəaliyyəti başa düşülür. Əsas məqsədlər dövlət vəsaitlərindən səmərəli istifadə olunması, dövlət xidmətlərinin səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsi, iqtisadiyyatın ayrı-ayrı sahələrinə cəlb olunmuş özəl investisiyaların həcminin artırılması, yeni iş yerlərinin açılması və rəqabətqabiliyyətli məhsul ixracının artırılmasıdır.

Qeyd olunub ki, qanun layihəsinin ikinci oxunuşu zamanı sənədin təşəbbüskarı olan ölkə Prezidenti tərəfindən 7 dəyişiklik təklif olunub. Bu dəyişikliklər layihədə öz əksini tapıb. Qanunun  16-cı, 22-ci, 30-cu və 35-ci maddələrində uyğunlaşdırma və dəqiqləşdirmə xarakterli dəyişikliklər nəzərdə tutulub.

Aparılan müzakirələrdə komitə sədri Siyavuş Novruzov, deputatlar Fazil Mustafa, Etibar Əliyev, Nigar Arpadarai, Elşad Mirbəşir oğlu, Aydın Hüseynov, Rəşad Mahmudov, Aydın Mirzəzadə qanun layihəsi ilə bağlı fikirlərini, qeyd və təkliflərini diqqətə çatdırıblar.

Komitə sədri Tahir Mirkişili səsləndirilən fikirlərə münasibət bildirib. İclasda iştirak edən iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirib. Müzakirələrin sonunda qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

### Sahibkarlığın inkişafına dəstək

Parlamentin sədri diqqətə çatdırıb ki, 3-cü məsələdən başlayaraq, növbəti 7 məsələ üçüncü oxunuşda olan qanun layihələridir. Gündəliyin 3-cü və 4-cü məsələləri Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə bağlıdırlar.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Diqqətə çatdırıb ki, qanun layihəsinə əsasən, mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində fəaliyyətin əlaqələndirilməsi məqsədilə daimi fəaliyyət göstərən koordinasiya qrupunun yaradılması nəzərdə tutulub. Bununla yanaşı, sahibkarlıq subyektləri haqqında müvafiq məlumatların daxil edildiyi mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestrinin yaradılması təklif olunur. Sənəddə koordinasiya və əlaqələndirmənin təmin olunması, KOB-ların sağlam mühitdə inkişafına zəmin yaradılması, dəstək tədbirlərindən kiçik və orta biznes subyektlərinin daha çox yararlanması məsələləri öz əksini tapıb.

Komitə sədri Tahir Mirkişili "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi ilə bağlı bildirib ki, sənəddə  sahibkarlıq sahəsini tənzimləyən qanunların siyahısına "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" qanunun əlavə olunması ilə bağlı dəyişiklik təklif olunur.

Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

İclasda iştirak edən Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov qanun layihəsi barədə fikirlərini açıqlayıb. Bildirib ki, layihədə mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində dövlət siyasətinin əsas məqsədlərinin və istiqamətlərinin müəyyən edilməsi ilə KOB subyektlərinin ölkə iqtisadiyyatında rolunun və rəqabət qabiliyyətinin artırılması, bu sahədə idarəçilik sisteminin müasir tələblərə uyğunlaşdırılması və nəticədə cəmiyyət, biznes və dövlət arasında səmərəli əməkdaşlığın möhkəmləndirilməsi hədəf kimi müəyyən edilir. O, qanunun ölkədə sahibkarlığın inkişafına xidmət edəcəyini bildirib.

Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluqkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında və "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri də üçüncü oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Dəyişikliklərə əsasən, adıçəkilən sənədlərdə ölümün qeydə alınması, uşağın övladlığa götürülməsi ilə bağlı dövlət qeydiyyatının aparılması, "Elektron məhkəmə" informasiya sistemindən ötürülən məlumatlar əsasında vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı zamanı şəhadətnamələrin verilməsi qaydası təkmilləşdirilir.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Nigar Arpadarai, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məsələ ilə bağlı bu komitələrin müsbət rəylərini açıqladıqdan sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi də üçüncü oxunuşda qəbul olunub.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, 10-cu məsələdən başlayaraq növbəti 4 məsələ uyğunlaşdırma xarakteri daşıyır, ona görə də bir oxunuşda qəbul ediləcək.

Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva "Milli arxiv fondu haqqında", "Dövlət qulluğu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Dövlət sirri haqqında", "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında" və "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib.

Diqqətə çatdırılıb ki, "Xüsusi dövlət mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2020-ci il 16 mart tarixli Fərmanla Xüsusi Dövlət Mühafizə Xidməti ləğv edilmiş və onun əsasında Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi yaradılıb. Bununla əlaqədar olaraq müvafiq fərmanlarla həmin qurumların əsasnamələri, strukturları təsdiq edilib, fəaliyyət istiqamətləri, səlahiyyət bölgüsü dəqiq müəyyən olunub. Təqdim olunan layihə bir sıra qanunlarda həmin dəyişikliklərin nəzərə alınması məqsədilə hazırlanıb.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov məsələ ilə bağlı bu komitələrin müsbət rəyini bildirdikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sonra parlamentin spikeri diqqətə çatdırıb ki, gündəliyin 11-ci, 12-ci və 13-cü məsələləri Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə bağlıdırlar.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə məlumat verib. Bildirilib ki, layihə "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli Qanununun icrası ilə əlaqədar hazırlanıb və uyğunlaşdırma xarakteri daşıyır.

Qeyd olunan qanunla Mülki Məcəllənin qiymətli kağızlarla bağlı müddəalarına dəyişikliklər edilsə də, normayaradıcılığı baxımdan bir sıra müddəalarda dəqiqləşdirmə və uyğunlaşdırma xarakterli düzəlişlərin edilməsinə ehtiyac yaranıb. Bu məqsədlə, "səhm sahibləri" ifadəsinin "səhm mülkiyyətçiləri", "ləğv edilməlidir" ifadəsinin "dövriyyədən çıxarılmalıdır", "reyestrsaxlayıcı" ifadəsinin "mərkəzi depozitar", "mənzil sertifikatı" ifadəsinin "daşınmaz əmlak", "məhkəmə icraçıları" ifadəsinin "icra məmurları" ifadəsi ilə əvəz olunması təklif olunur.

Sonra Bəhruz Məhərrəmov Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini təqdim edib. Bildirilib ki, bu qanun layihəsi də Mülki Məcəlləyə 2015-ci ildə edilən dəyişikliklərlə bağlıdır.Mülki Prosessual Məcəllədə məhkəmənin xüsusi icraat qaydasında baxdığı işlər üzrə siyahı, eyni zamanda mürəkkəb icraat hesab olunan çağırış icraatı üzrə məsələlərdə, Cinayət Prosessual Məcəlləsində isə "mülki cavabdeh", "girov", "maddi sübutlar və digər əşyaların saxlanılması", "əmlak üzərinə həbs qoyulması" anlayışları üzrə dəqiqləşdirmə aparılır. Həmçinin Vergi Məcəlləsində də müvafiq uyğunlaşdırmalar nəzərdə tutulub.

"Valyuta tənzimi haqqında", "Terrorçuluğa qarşı mübarizə haqqında", "Notariat haqqında", "Dövlət rüsumu haqqında", "Banklar haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "İpoteka haqqında" və "İnvestisiya fondları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsində təklif olunan dəyişikliklər də yuxarıda qeyd olunanlarla əlaqədardır.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

### Qaz təchizatı ilə bağlı texniki şərtlər, norma və tələblər təkmilləşdirilir

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin qalan 5 məsələsi birinci oxunuşda olan qanun layihələridir və deputatlardan çıxışlarında birinci oxunuşun tələblərini nəzərə almalarını xahiş edib.

"Qaz təchizatı haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) barədə Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov məlumat verib. Diqqətə çatdırıb ki, qanun layihəsi təbii qaz təchizatı qurumları tərəfindən texniki şərtlərin verilməsi ilə əlaqədar normativlərin, texniki norma və tələblərin müasir standartlara uyğunlaşdırılması, müvafiq infrastrukturun yaradılması, yenidən qurulmasına görə ödənişlərin hesablanması işlərinin qanunvericilik əsaslarının təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Sənəd tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və əlavə qaz həcmi alması qaydasının, qoşulma xidmətinə görə ödənişin məbləğinin müəyyən edilməsi metodologiyasının hüquqi əsaslarını yaradacaq, eyni zamanda qoşulma prosesinin şəffaflığını, eloktronlaşmasını, asanlaşmasını təmin edəcək.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova qeyd edib ki, gündəliyin 15-ci və 16-cı məsələləri mahiyyətcə birbirinə bağlı olan qanun layihələridir. Ona görə də Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərovdan qanun layihələri barədə məlumatı birlikdə verməyi xahiş edib.

İnzibati Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) ilə bağlı Nizami Səfərov deyib ki, məcəlləyə təklif edilən dəyişikliklərə görə inzibati məhkəmə icraatı iddiaçının seçimi əsasında elektron qaydada, ümumi prosessual qaydalara uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə aparıla bilər. Belə olan halda  icraat, ərizə, şikayət və digər sənədlərin göndərilməsi, qəbulu, habelə məhkəmə sənədlərinin məhkəməyə və proses iştirakçılarına çatdırılması "Elektron məhkəmə" informasiya sistemində yaradılan elektron kabinet vasitəsilə həyata keçirilir. Bundan əlavə, layihəyə əsasən məhkəmə məcəllə ilə müəyyən edilmiş hallarda məhkəmə icraatını proses iştirakçısının iclas zalında bilavasitə iştirakı olmadan videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirə bilər.

Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsində (birinci oxunuş) isə dövlət, peşə, kommersiya sirrinin açılması, şəxsi və ailə həyatı sirrinin yayılması, yetkinlik yaşına çatmayan şəxslərin marağının gözlənilməsi, övladlığa götürmə, vərəsəlik və digər hallarda videokonfrans əlaqə sistemindən istifadə edilməklə qapalı məhkəmə iclasının aparılması istisna edilir. Nizami Səfərov dəyişikliklərin məxfi məlumatların qorunması rejimini təmin etməsi ilə bağlı ətraflı məlumat verib.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra parlamentin sədri bildirib ki, gündəliyin 17-ci və 18-ci məsələləri də ölkə Prezidentinin  bir məktubu ilə Milli Məclisə təqdim edilib və mahiyyətcə bir-birinə yaxındırlar.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov birinci oxunuşda olan İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında və Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri ilə bağlı məlumatı birgə təqdim edib. O bildirib ki, layihələr satmaq öhdəliyi ilə qurulan kirayə hüquq münasibətlərinin mövcud olduğu dövrdə çoxmənzilli binanın istismarı və idarə edilməsi ilə əlaqədar kirayəçinin və mülkiyyətçinin hüquq və vəzifələrinin tənzimlənməsi zərurətindən irəli gəlir. Təklif olunan dəyişikliyə görə ümumi əmlaka sərəncam verilməsinə dair sahə mülkiyyətçisinin səlahiyyətləri mülkiyyətçidə saxlanılır, digər səlahiyyətlər (çoxmənzilli binanın idarə edilməsində, o cümlədən çoxmənzilli binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağında iştirak və ondan irəli gələn hüquqlar, ümumi əmlakın saxlanması üzrə xərclər və sair) kirayəçiyə verilir. Eyni zamanda bu hüquq və vəzifələrin pozulmasına və ya yerinə yetirilməməsinə görə isə inzibati məsuliyyət müəyyən olunub.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "Xəzər Hövzəsi Araşdırmaları" Proqramına yekun vurulub

ADA Universiteti nəzdində fəaliyyət göstərən İnkişaf və Diplomatiya İnstitutunun ("IDD") İxtisasartırma Proqramları tərəfindən təşkil edilən "Xəzər Hövzəsi Araşdırmaları" Proqramına yekun vurulub.



Universitetdən AZƏRTAC-a bildiriblər ki, proqramda on yeddi ölkəni - Argentina, Belçika, Böyük Britaniya, Braziliya, Gürcüstan, İsrail, İtaliya, Qazaxıstan, Qırğızıstan, Malayziya, Meksika, Özbəkistan, Pakistan, Polşa, Rumıniya, Türkiyə və Ukraynanı təmsil edən 30-dək xarici diplomat, dövlət qulluqçusu və diplomatik akademiya və beyin mərkəzlərinin nümayəndələri iştirak ediblər.

Proqram çərçivəsində keçirilən mühazirələr vasitəsilə iştirakçılar Xəzər regionun tarixi, geostrateji mövqeyi və iqtisadi imkanları barədə biliklərini artırıblar. Onların ölkəmizlə bağlı hərtərəfli məlumat əldə etmələri üçün müxtəlif mədəni, tarixi məkanlara, eləcə də Bakı Beynəlxalq Dəniz Limanına ziyarəti və Ağdam şəhərinə səfəri təşkil edilib. Bakı Beynəlxalq Dəniz Limanında olan iştirakçılara tarixi İpək yolu üzərində mühüm mövqeyə malik Azərbaycanda icra edilən "logistik hub" konsepsiyasına dair məlumat verilib.

Proqram çərçivəsində Ağdama səfər edən qonaqlar Şahbulaq qalası, İmarət kompleksi, Cümə məscidi, Dram teatrı, Şəhidlər xiyabanı, Konfrans Mərkəzi də daxil olmaqla bir sıra tarixi məkanları ziyarət edərək, vaxtilə dağıntılara məruz qalmış abidələrin hazırkı vəziyyəti ilə tanış olub, eyni zamanda oradakı quruculuq və bərpa işlərini yerində müşahidə ediblər.

Proqramın dekabrın 2-də baş tutan bağlanış mərasimində Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev regiondakı sülh quruculuğu prosesi, qonşu dövlətlərlə münasibətlər və Xəzər regionunda münaqişədən sonrakı vəziyyətlə bağlı mövzuları əhatə edən yekun mühazirə ilə çıxış edib. Daha sonra Azərbaycan Prezidentinin köməkçisi proqramı uğurla tamamlayan iştirakçılara sertifikatlar təqdim edib. Proqramla bağlı təəssüratlarını bölüşən qazaxıstanlı Salimcan Toilybek deyib: "Azərbaycan bizə məsafə baxımından yaxın olmasına baxmayaraq, ölkənizlə bağlı məlumatım məhdud idi. Buraya gəlmədən, bu proqramda iştirak etmədən Xəzərin Azərbaycan tərəfini kəşf etmək, onun tarixini, mədəniyyətini, eləcə də Qarabağla bağlı məsələləri dərindən öyrənmək mümkün deyil".

# İkinci "Yüksəliş" müsabiqəsinin mentorluq proqramı müzakirə edilib

## Müsabiqənin Təşkilat Komitəsinin növbəti iclası keçirilib



Dekabrın 2-də "Yüksəliş"in Təşkilat Komitəsinin növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda birinci "Yüksəliş" müsabiqəsi qaliblərinin mentorluq proqramının nəticələri və ikinci "Yüksəliş" müsabiqəsinin qarşıda duran mentorluq proqramı geniş müzakirə edilib. İşçi qrup tərəfindən hər iki müsabiqənin nəticələrinin təhlili əsasında hazırlanmış yeni təkliflər komitə üzvlərinə təqdim olunub.

Xatırladaq ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 26 iyul tarixli Sərəncamı əsasında, intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektivli rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunub. 2021-ci ildə yekunlaşan ilk müsabiqədə 27 nəfər qalib olub. 2022-ci ildə isə növbəti "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən ikinci müsabiqə baş tutub. İyul ayında başa çatan ikinci müsabiqədə 22 qalib müəyyənləşib.

3 Dekabr Beynəlxalq Əlillər Günüdür

# Xəyal dünyaları geniş, baxış bucaqları fərqli

## DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi fiziki məhdudiyyətli şəxslərə yeni ümidlər bəxş edir

Statistik məlumatlara əsasən, hazırda dünyada təxminən bir milyard fiziki məhdudiyyətli şəxs yaşayır və onlar sosial həyatlarında müxtəlif fiziki, ictimai-iqtisadi və davranış məhdudiyyətləri ilə üzləşirlər. Bu gün onların günüdür.

















Hər il dekabrın 3-ü dünyada Beynəlxalq Əlillər Günü qeyd edilir. Bu haqda 1992-ci il dekabrın 14-də BMT Baş Assambleyasının qətnaməsi qəbul olunub. Qətnamənin hədəfi sosial-ictimai həyatın bütün sahələrində əlillərin hüquqlarının qorunması, sosial rifahlarının yaxşılaşdırılması, peşə ixtisaslarına yiyələnməsi, bir sözlə, tam hüquqlu üzv kimi cəmiyyətə inteqrasiyası üçün tədbirlər görmək və diqqəti onların problemlərinə yönəltməkdir. Ölkəmizdə bu kateqoriyadan olanlara həmişə həssaslıqla yanaşılıb. Azərbaycan 2006-cı ildə "Əlilliyi olan şəxslərin hüquqları haqqında" BMT-nin Konvensiyasına qoşulub.

### Bu mərkəzdə təlim keçənlərin işlə təmin olunması asanlaşır

Ölkəmizdə fiziki məhdudiyətli şəxslərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən genişmiqyaslı tədbirlərin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. İnsan amilini daim diqqətdə saxlayan görkəmli dövlət xadiminin rəhbərliyi dövründə də əlillərin sosial müdafiəsinə xidmət edən tədbirlər görülüb.

Ümummilli Liderin fiziki məhdudiyyətli şəxslərə göstərdiyi sosial siyasət bu gün Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilir. Fiziki məhdudiyyətli şəxslərin cəmiyyətə inteqrasiyasına xidmət edən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi kimi ilk unikal müəssisənin də Cənubi Qafqazda ilk dəfə məhz Azərbaycanda yaradılması bunun sübutudur.

Ümumiyyətlə, Bakıda və regionlarda əlillər üçün müxtəlif reabilitasiya mərkəzləri, protez-ortopedik müəssisələr, yaradıcılıq və peşə mərkəzləri fəaliyyət göstərir. DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin əsas məqsədi şəhid ailələrinin, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər və onların uşaqlarının, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqların, aztəminatlı ailələrin və əlilliyi olan istedadlı şəxslərin müvafiq istiqamətdə bacarıq və yaradıcılıq potensialının inkişaf etdirilməsidir.

2021-ci il oktyabrın 22-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın iştirakı ilə mərkəzin açılışı olub. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan mərkəzdə həssas qrupdan olan şəxslərin yaradıcılıq potensialının artırılması və sosial-psixoloji dəstək məqsədilə təlimlər keçirilir. Müxtəlif növ rəqslər, təsviri incəsənət, dulusçuluq, musiqi, dərzilik, modelyerlik, xalçaçılıq, bədii oyma, floristika, bağçılıq və landşaft dizaynı, fotoqrafiya sənəti, kulinariya daxil olmaqla, ümumilikdə 14 istiqamət üzrə təlimlər verilir.

### 6 aydan 24 ayadək davam edən təlimlər

DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin direktoru Pərvinə İsmayılova bildirir ki, hazırda mərkəzdə fəaliyyət istiqamətləri üzrə 281 nəfər benefisiar təlim alır: "Təlim alan şəxslərin 12 nəfəri şəhid və qazi ailəsi üzvü, 185-i əlilliyi olan, 48-i aztəminatlı, 36-sı isə valideyn himayəsindən məhrum olmuş şəxslərdir. Benefisiarlarla fəaliyyət planının aparılması beynəlxalq standartlara, "CARe metodologiyası"na (Reabilitasiyaya Kompleks yanaşma) əsaslanır. O, bərpa və psixososial reabilitasiya prinsiplərinə istiqamətləndirilmiş modeldir".

Mərkəzin direktoru qeyd edir ki, qəbul komissiyasından keçmiş şəxslərin ilkin olaraq sosial işçi tərəfindən qiymətləndirilməsi aparılır və bu barədə psixoloqa məlumat verilir: "Həmin şəxsin psixometrik qiymətləndirilməsi aparıldıqdan sonra onun "case manager"i təyin edilir, sosial psixoloji xidmət növü müəyyənləşdirilir, təlim alan hər bir şəxsə fərdi inkişaf planına uyğun sosial-psixoloji dəstək göstərilir. Prosesin sonrakı gedişatı və sonlandırılması benefisiarın özünün və ya onun valideynlərinin məsuliyyətindən asılıdır. Mərkəzə yaşı 6-dan yuxarı olan şəxslər qəbul edilir. Burada təlimlər 6 aydan 24 ayadək davam edir. Sonda işlə təmin ola bilmələri üçün təlim alanlara müvafiq istiqamət üzrə diplom və ya sertifikatlar təqdim edilir".

P.İsmayılova deyir ki, mərkəzin benefisiarlarının cəmiyyətə inteqrasiyasını gücləndirmək üçün paralel olaraq multidissiplinar qrupla iş aparılır: "Bu, sosial-pedaqoji-psixoloji dəstək şöbəsidir. Benefisiarlarla bağlı məlumatlar bu departamentdən təlimçilərə ötürülür. Uşaq və böyüklər üçün iki multidissiplinar qrup formalaşdırılıb. Həmin qruplara həkim-psixiatr, sosial işçi, klinik psixoloq, uşaq psixoloqu, təlimçi və psixo-pedaqoq daxildir. Tələbat və ya ehtiyac yarandıqda həmin qrupa defektoloq-loqoped, həmçinin surdoloq da əlavə olunur".

### Seçim azadlığı onlarda güvən yaradır

Mərkəzdə keçirilən təlimlərdən biri təsviri-incəsənətdir. Dekorativ tətbiqi-sənəti və vitraj fəalliyyəti üzrə təlimçi Kəmalə Aslanova deyir ki, bu sənət daha çox xəyal dünyaları geniş, baxış bucaqları fərqli olan autizm, daun və asperger sindromlu insanlar üçün uyğundur: "Onlar avanqard və abstarkt üslubda kollajlar edirlər. Şüşə üzərində vitraj boyaları ilə panolar hazırlayır, armudu stəkanlar, vazalar üzərində işləyirlər. Bu, olduqca səbir və dəqiqlik tələb edən sahədir".

Kəlbəcər rayonundan olan Samirə İbrahimova qızı ilə birlikdə mərkəzə müraciət edib. İkinci qrup əlilliyi olan bu xanım xəritə formasında hazırlanan ilk səməninin müəllifidir. Hər il Novruz bayramında hazırladığı səmənilər Fəxri xiyabanlara aparır. Samirə xanımın 15 yaşlı qızı Fatma burada floristika və landşaft dizaynı ilə məşğul olur.

Təlimçi-rəssam Kəmalə Musa bildirir ki, benefisiarlar ilk dəfə gələndə onların ən böyük problemi sosiallaşmaq olur: "Təlimlərə başladıqdan qısa müddət sonra onlar bunu aşır, çərçivələrdən çıxırlar. Bu, özünü əl işlərində də göstərir. Mərkəzdə təlim alan 13 yaşlı Hüseyn Məmmədovun bura gələrkən düşüncələri fərqli olub. Bunu öncəkilərlə indiki rəsmlərini müqayisə etdikdə görə bilərik. Tünd rənglərdən, qara tonlardan istifadə edirdi, bədheybət şəkilləri çəkirdi. İndi isə dünyaya artıq fərqli gözlərlə baxır".

Təbrizdən gələn Aynas Alipour və onun valideynləri isə mərkəz barədə razılıqlarını belə ifadə ediblər: "Qeyri-adekvat və aqressiv hərəkətlərinə görə müəllimlərin uşaqların üzərinə getməmələrini gördükdə çox təəccübləndik. Burada benefisiarlar istədikləri ləvazimat və rənglərdən istifadə edirlər. Seçim azadlığı onlarda tədricən güvən yaradır və istedadlarını inkişaf etdirir".

### Yaradıcı mühit, rəngarəng seçim

Mərkəzdə ən çox tələb olunan istiqamətlərdən biri də idman və rəqs təlimləridir. Azərbaycan Kapoeyra Federasiyası ilə əməkdaşlıq çərçivəsində idman istiqaməti üzrə kapoeyra təlimləri təşkil edilib. Məhz bu idman növünün keçirilməsinə səbəb musiqi ilə yüngül döyüşün sintez təşkil etməsidir. Təlimçilər Kapoeyra Federasiyasının üzvləridirlər.

Burada milli, bal, baçata və Latın Amerika rəqsləri keçirilir. Rəqslər Əməkdar artist Rüfət Xəlilzadənin bədii rəhbərliyi ilə baş tutur. Digərləri kimi idman və rəqs təlimləri də qrup şəklində keçirilir. Çünki art-terapiyalarda əsas məqsəd benefisiarların sosiallaşmasıdır.

Mərkəzdə əməkdaşlıq nəticəsində hippoterapiya təlimləri də təşkil edilir. Hippoterapiya atlarla psixoterapiya üsuludur və bu müalicə metodu əlilliyi olan şəxslərin psixoloji durumunun yaxşılaşdırılmasına müsbət təsir göstərir. Hippoterapiyanın autizm, serebral iflic, artrit, dağınıq skleroz, travmatik beyin zədəsi, insult, onurğa beyin zədəsi, davranış və psixi pozğunluqlar kimi nevroloji və digər xəstəlikləri olan şəxslərin reabilitasiyasında effektivliyi elmi nəticələrlə sübut edilib. Metod eşitmə və görmə qabiliyyətinin zədələnməsi hallarında da geniş tətbiq olunur.

Təlim alanlar fortepiano, gitara, tar, baraban və nağara kimi musiqi alətlərində ifa etməyi öyrənir, müxtəlif tədbirlərdə çıxış edirlər. 28 yaşlı Səbinə Əsgərova təlimçi Esmiraldo Hüseynova vokalla məşğuldur. Görmə qüsurlu bu istedadlı xanım musiqinin müxtəlif janrları ilə məşğul olur. Benefisiarların yaradıcılıq potensialının gücləndirilməsi və mərkəzin fəaliyyət istiqamətlərinin artırılması məqsədilə müxtəlif mədəniyyət və təhsil müəssisələri ilə uğurlu əməkdaşlıq əlaqələri qurulur. Televiziyada yayımlanan "Bərabərik" musiqili televiziya verilişində də çıxış edib.

Vokalistlərin səsləri mərkəzin səsyazma otağında qeydə alınır. Səsyazma mütəxəssisi Rasim Məmmədov həm benefisiarların səslərini yazır, həm də bu peşəni öyrənmək istəyənlərə təlimçilik edir. Lakin bu sahəni seçmək üçün yalnız istək kifayət etmir. Təlim alan şəxs minimal kompüter bacarıqlarına sahib olmalı, fiziki imkanları da buna yol verməlidir.

Mərkəzdə səhnə ifaçılığı, aktyorluq və rejissorluq sənəti də öyrədilir. Burada mütəmadi olaraq benefisiarların iştirakı ilə tamaşalar səhnələşdirilir.

Noyabrın 9-da Heydər Əliyev Fondunun Birinci vitse-prezidenti Leyla Əliyeva mərkəzin təlim istiqamətləri ilə yaxından tanış olub və "Təklif" tamaşasını izləyib.

Keramika təlimləri tədris edilən otaqda benefisiarlar, adətən, diqqətlərinin yayınmaması üçün musiqi sədaları altında çalışırlar. Təlimçi Cahan Namazova deyir ki, təlim alanlar burada 3D rəsmlər, dekorativ panolar, mozaikalar, vazalar, qablar, heykəllər və digər müxtəlif əşyalar hazırlayırlar. Burada təlimçi ancaq texnikanı öyrədir, gerisini benefisiarların xəyal gücü həll edir.

Daun sindromlu 19 yaşlı Pərvanə keramika texnikası ilə yanaşı, baçata və floristika ilə də məşğuldur. Əslində, təlimçilər bir sahəyə mükəmməl yiyələnməyə üstünlük verirlər. Benefisiarın istəyi və dissiplinar komandanın qərarı ilə eyni zamanda bir neçə istiqamət seçilə bilər.

Yaradıcılıq otağında dulusçuluq çarxı gil-terapiyanın tətbiqi üçündür. Fiziki güc tələb edən bu sahə kiçik motorikanın inkişafı üçün önəmlidir.

Mərkəzin floristika və landşaft dizaynı üzrə təlimçisi Ülkər Mirzəyeva deyir ki, bu sahə art-terapiyaya daha çox uyğundur. Peşə olaraq yiyələnmək istəyənlərə isə floristikanın sirləri, buketlərin bağlanılması, ekibanaların yığılması, müxtəlif gül kompazisiyalarının hazırlanması öyrədilir. Təlim zamanı təbii bitki materiallarından istifadə edilir.

### Mərkəzdə fiziki məhdudiyyətli təlimçilər də çalışırlar

Mərkəzdə fiziki məhdudiyyətli təlimçilərin fəaliyyət göstərməsi də təqdirəlayiq haldır. Onlardan biri də bədii oyma sənəti ilə məşğul olan 31 yaşlı təlimçi Asif Qasımovdur.

Təlimlər arasında olan sahələrdən biri də xalçaçılıqdır. Burada iş prosesi ikikhissəlidir. İlk öncə eskizlər hazırlanır, daha sonra onların əsasında müxtəlif ölçülü xalçalar toxunur. Xalçaçılıqla yanaşı, mərkəzdə dərzilik, modelyer-dizaynerlik, geyimlərin üzərində qalıcı boyalarla rəsmlərin çəkilməsi öyrədilir. Mərkəzdə məqsəd daha faydalı olmaq üçün tələbat olan sahələri seçməkdir.

Mərkəzin digər təqdirəlayiq addımı odur ki, burada benefisiarlarla paralel onların valideynləri ilə də işlər aparılır. Valideynlərlə qrup psixoterapiyası, uşaqların problemli davranışının korreksiyası təlimləri, övladı ilə düzgün davranış qaydaları və onların mərkəzin nizam-intizam sisteminə uyğunlaşdırılması, övladının xəstəliyi və ya əlilliyi barədə geniş maarifləndirilmə işləri, "Valideynə dəstək proqramı" çərçivəsində təlimlər həyata keçirilir.

*Ülkər XASPOLADOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Fransa Ermənistanın timsalında terroru dəstəkləyir

## Fransa Qafqazı itirir

### Bu ölkə riyakar əməlləri ilə regiondakı mövcudluğuna son verir

Noyabrın 30-da Fransa Milli Assambleyası da Fransa senatından sonra Azərbaycan əleyhinə bədnam qətnamə qəbul edib. Bu qətnamələr Azərbaycanla Ermənistan arasında normallaşma prosesini əngəlləməyə xidmət edir və bölgədə sülhün bərpasına mane olur.

Fransa bu addımı ilə təcavüzü və terroru dəstəkləyir. Bu, bir daha sübut edir ki, rəsmi Paris artıq tarixə qovuşmuş Ermənistan-Azərbaycan münaqişəsinin yenidən canlanmasında maraqlıdır. Bütün bunlar keçmiş Minsk qrupunun həmsədr ölkəsi olan Fransanın Cənubi Qafqazda özünə yer etmək cəhdləridir. Fransa davamlı fiaskoya uğramasına baxmayaraq, riyakar əməllərindən əl çəkmir. Fransa soyqırımları törətmiş cinayətkar dövlət kimi əsl simasını göstərmişdi. Bu ölkə insan haqlarından danışa biləcək sonuncu dövlət olduğunu qlobal müstəvidə sübut edib.

Rəsmi Paris Avropanın enerji təhlükəsizliyində və nəqliyyat-logistika sahəsində mühüm aktora çevrilmiş Azərbaycanla da dövlətlərarası münasibətlərini artıq pozub. Fransa öz milli maraqlarını, Cənubi Qafqazdakı iqtisadi tərəfdaşlığını qurban verərək erməni şovinistlərini dəstəkləməkdə davam edir.

Fransa senatının və Milli Assambleyasının ölkəmiz əleyhinə qəbul etdikləri bədnam qətnamələr isə bizim üçün kağız parçasından başqa heç nə deyil. Prezident İlham Əliyevin nail olduğu siyasi-diplomatik konfiqurasiya Fransanın ölkəmizə hansısa təsirinə imkan verməz. Əslində, Fransa separatizmə dəstək verən belə addımları ilə Qafqazı itirmək üzrədir və bu regionun ən potensiallı ölkəsinin məhz Azərbaycan olduğunu gec, ya tez qəbul etməli olacaqdır. Azərbaycan Cənubi Qafqazda əsl söz sahibi olduğuna görə, ölkəmizin iştirakı olmadan bu regionda hansısa layihələrin reallaşdırılması mümkün deyil.

#### Fransanın Cənubi Qafqazda öz maraqlarını təmin etmək imkanı yoxdur

Milli Məclisin deputatı **Elşad Mirbəşiroğlu** deyib ki, Fransa dövlətimizin siyasi iradəsi və təkbaşına mübarizəsi ilə artıq tarixə qovuşmuş Ermənistan-Azərbaycan münaqişəsi üzərindən özünün Cənubi Qafqazda mövcudluğunu təmin etməyə çalışırdı. Deputatın sözlərinə görə, bu ölkənin keçmiş Minsk qrupunun həmsədrliyində təmsil olunmasının da əsas səbəbi bu idi.





"2020-ci ilin sentyabrın 27-də başlayan Vətən müharibəsində torpaqlarımız işğaldan azad edildi. Bununla da münaqişə bitdi. Fransa regionda münaqişənin sona çatdığını anlayaraq onun da Cənubi Qafqazda mövcudluğunun mümkün olmayacağını düşündü. Bu mövqedən çıxış edən rəsmi Paris sanki münaqişənin hələ də davam etməsi təəssüratını formalaşdırmaq üçün əlindən gələni etməyə başladı. Bunun üçün Ermənistandan bir alət kimi istifadə etmək ən optimal seçim idi. Qeyd etmək lazımdır ki, Ermənistanın mövqeyini birtərəfli qaydada dəstəkləyən Fransa keçmiş Minsk qrupunun həmsədrliyində təmsil olunanda da Ermənistanın işğalçılıq siyasətinin nəticələrini leqallaşdırmağa çalışırdı. Fransa bu cür yanlış mövqe sərgiləməklə həm özünün, həm də bütövlükdə Avropa İttifaqının fundamental maraqlarını ciddi zərbələr altında qoyur", - deyə deputat bildirib.

Deputat qeyd edib ki, Azərbaycan Cənubi Qafqazın ən potensiallı, güclü ölkəsi olduğuna görə, ölkəmizin iştirakı olmadan bu regionda hansısa addımın atılması, beynəlxalq layihələrin reallaşdırılması qeyri-mümkündür: "Bu mənada, Fransanın Azərbaycan kimi bir dövlətlə münasibətlərinə xələl gətirəcək addımlar atması, bədnam qətnamələr qəbul etməsi öz milli maraqlarına xəyanət deməkdir. Bu həm də onu göstərir ki, dünya erməniliyi Fransa siyasətini ələ keçirmək iqtidarındadır. Fransa işğalçı Ermənistanı müdafiə etməklə separatizmə dəstək verir. Lakin unudur ki, Cənubi Qafqazda mövcudluğunu təmin etmək üçün ən optimal yol Azərbaycanla münasibətləri inkişaf etdirmək və əlaqələri genişləndirmək olardı. Fransa bunun əskinə gedərək, qeyri-obyektiv mövqe sərgiləməyə davam edir".

E.Mirbəşiroğlu deyib ki, separatizmə, terrora dəstək nümayiş etdirən Fransanın Cənubi Qafqaz regionunda öz maraqlarını təmin etmək imkanı qalmayacaq: "Fransa bu il sentyabrın 12-14-də Ermənistan tərəfindən törədilən təxribatlara Azərbaycanın cavab addımlarını düzgün qiymətləndirməyib. Ermənistan torpaqlarımızı 30 ilə yaxın işğalda saxlayanda, mədəni irsimizə xələl gətirəndə, məsum körpələrin, qadınların qanına əl bulaşdıranda bu addımlara bir dəfə də olsun obyektiv qiymət verməyib. Yəni Fransa ciddi yanlışlıqlara yol verir və unudur ki, Azərbaycan Avropa İttifaqının (Aİ) istər enerji, istərsə də nəqliyyat-logistika sahəsində mühüm tərəfdaşıdır. Bu amillər isə Aİ-nin təhlükəsizliyi üçün çox vacibdir. Bu baxımdan, Fransa, bilərəkdən və ya bilməyərəkdən, Aİ-nin təhlükəsizliyi və strateji əhəmiyyət kəsb edən məsələlərdəki mövqeyi üçün ciddi təhdidlər yaradır. Bu ölkə belə ədalətsiz mövqeyində israrlı olarsa və mövcud reallığa qərəzli münasibət göstərməyə davam edərsə, təbii ki, proseslər onun gözləntilərini doğrultmayacaq. Nəticədə, Fransa Cənubi Qafqazda mövcudluğunu tamamilə itirəcək".

#### Bu ölkə öz iqtisadi maraqlarına zərbə vurur

Milli Məclisin deputatı **Bəhruz Məhərrəmov** bildirib ki, Fransa Milli Assambleyasının anti-Azərbaycan ritorikası bizim üçün yenilik deyil və senatın qətnaməsi kimi aşağı palatanın da qətnaməsi də heç bir hüquqi və siyasi nəticə doğurmayan kağız parçasıdır. Onun sözlərinə görə, Fransa parlamentinin bu mövqeyi bizi narahat etsə də, dövlətimizin beynəlxalq imicinə xələl gətirəcək gücə malik deyil.

"Əksinə, bu mövqe Parisin onsuz da bərbad olan imicinə beynəlxalq hüququn ümumtanınmış prinsipləri fonunda ciddi zərbə endirir. Fransa qanunverici hakimiyyətinin rəsmi mövqeyi beynəlxalq hüququn "dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı" başda olmaqla, ən azı 5 prinsipi ilə daban-dabana ziddir. Bu qətnamələr özündə təcavüzkar və mürtəce imperialist mahiyyət ehtiva etdiyinə görə, bəşəri təhdid də adlandırıla bilər. Fransa mövcud təhlükəli gedişlərilə Cənubi Qafqazda ehtimal olunan sülh müqaviləsi önündə əsas səddə çevrildiyini göstərir. Əlbəttə, bu, bizim üçün yenilik deyil. Çünki bu ölkə keçmiş Minsk qrupunda 27 illik həmsədrliyi dövründə də işğal rejiminin davamlılığında müstəsna rol oynayıb", - deyə B.Məhərrəmov qeyd edib.

Deputatın dediyinə görə, Fransa senatı və aşağı palatası ötən dövrdən fərqli olaraq bu gün ərazi bütövlüyünü təmin etmiş, regionda əsas güc və nüfuz sahibinə çevrilmiş Azərbaycana qətnamələrlə hücum strategiyasını seçib: "Lakin bu qətnamələr Fransanın özünün ifşası kontekstində daha çox gündəmə gəlməkdədir. Fransa parlament səviyyəsində separatizmə, terrora dəstək verməklə Əlcəzair, Ruanda, Cad, Mali, Kamboca və Vyetnamda 20 milyona yaxın insanın ölümü ilə nəticələnən dövlət terroru təfəkkürünü müasir dövrdə də yaşatdığını bəyan etmiş olur. Bu, Fransanın BMT Nizamnaməsini rədd etməsi deməkdir. Belə olan halda Fransanın BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi qalması təşkilatın məramına ziddir və bütövlükdə BMT-nin sonrakı fəaliyyətinə olan qlobal etimadı sual altına qoyur. Rəsmən terror saçan, dünyada separatizmi təşviq edən bir dövlətin bəşəri təhlükəsizlik məsələsində söz sahibi olması birmənalı olaraq qlobal təhdiddir".

B.Məhərrəmov bildirib ki, Prezident İlham Əliyev də rəsmi Parisin Ermənistan-Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqlarda istənilən formada vasitəçi olması ehtimalını rədd edib. Baş verənlərin fonunda Fransanın Azərbaycanla münasibətlərini bu qədər gərginləşdirməsi ciddi suallar yaradır: Parisin məqsədi və hədəfi nədir?!

"Təbii ki, ondan başlamalıyıq ki, "bacı" adlandırsa belə, Ermənistan, yaxud ermənilər Paris üçün bir neçə istifadəlik köməkçi vasitədən başqa bir şey deyil. Ermənilərin bu gün Fransa siyasətində həlledici gücə sahib olması mifdir. Erməni lobbisi ən yaxşı halda Marsel bələdiyyəsinin seçkilərinə təsir göstərə bilər. Deməli, Fransanın məqsədləri daha fərqli müstəvidə araşdırılmalıdır. Tarixə nəzər yetirsək, fransızların Şimali Afrika və Cənub-Şərqi Asiya kimi dövlətlərdəki fəaliyyətinin, əslində, Parisin Qafqazla bağlı bugünkü niyyəti barədə ilkin ehtimallar irəli sürməyə imkan verdiyini görərik. "Makron Fransası" Qafqazda neo-imperializmi canlandırmaq fikrinə düşüb. Fransanın bu mürtəce siyasətini reallaşdırması üçün ən ciddi maneə isə iqtisadi və siyasi cəhətdən tam müstəqil olan Azərbaycandır. Prezident İlham Əliyev bütün dünya dövlətləri, o cümlədən Fransa ilə əməkdaşlığı təşviq edən açıq siyasi kurs yürüdür, bunun faydalarını da hər bir azərbaycanlı hiss edir. Bu siyasət tərəfdaşlardan bərabərhüquqlu münasibət, suverenliyimizə və milli maraqlarımıza hörmət tələb edir. Bu isə rəsmi Paris üçün arzuedilən olmadığına görə, deməli, bu riyakarlıqların kökündə Fransanın daşa dəyən niyyəti dayanır", - deyə deputat söyləyib.

B.Məhərrəmov deyib ki, sovetlər birliyi dağıldıqdan sonra Fransa Cənubi Qafqazda fəal siyasi oyunçulardan və iqtisadi tərəfdaşlardan biri kimi çıxış edirdi: "Bununla da iqtisadi maraqlarını yüksək səviyyədə təmin etməyə çalışırdı. Bölgənin siyasi və iqtisadi, Vətən müharibəsindən sonra isə həm də hərbi gücü kimi özünü təsdiq edən Azərbaycan rəsmi Paris üçün iqtisadi-ticari tərəfdaşlığın əsas məkanı idi. Bu mənada, Fransanın nümayiş etdirdiyi mövqe, qəbul etdiyi bədnam qətnamələr ilk növbədə bu ölkənin elə özünün Cənubi Qafqazdakı iqtisadi maraqlarına zərbə oldu. Xüsusən də şanlı zəfərimizdən sonra yeni reallıqlar fonunda Azərbaycanın artan nüfuzu, tranzit haba çevrilməsi fonunda Fransanın belə ədalətsiz mövqe sərgiləməsi onu çox ciddi imkanlardan məhrum etdi. Əgər Fransada müəyyən dövrdən sonra praqamatik bir qüvvə hakimiyyətə gələrsə, elə Parisin özünün maraqları naminə Makron rejimindən bu davranışların hesabı soruşulacaq".

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Fransa parlamentinin qəbul etdiyi qətnamələr yalan və böhtan xarakterlidir

İsrail Təhlükəsizlik Akademiyasının Fransa Milli Assambleyasının anti-Azərbaycan qətnaməsini pisləyən bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, bəyanatda Fransa Senatının ardınca Fransa Milli Assambleyasının da Azərbaycana qarşı qəbul etdiyi qətnamənin tamamilə Fransanın erməni təəssübkeşliyindən qaynaqlandığı vurğulanır. Qeyd olunur ki, Fransa Senatı və Milli Assambleyası Azərbaycanın öz qanuni və beynəlxalq hüquqla tanınan torpaqlarını məhz BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 ardıcıl qətnaməni icra edərək işğaldan azad etməsi ilə qətiyyən barışmır. Fransa parlamenti irqçi və ikili standartları sərgiləyən ermənipərəst xarakterli belə qətnamələri ilə işğalçılığa erməni separatizminə və erməni cinayətlərinə birbaşa dəstək verməkdədir. 1992-1993-cü illərdə Ermənistanın işğal və etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan çox azərbaycanlı doğma el-obasından məcburi köçkün və qaçqın düşmüşdür. Onlar işğal illərində böyük müsibətlərə və məşəqqətlərə məruz qalıblar. Təkcə 1992-ci ilin fevralın 25-dən 26-na keçən qarlı-boranlı qış gecəsində Ermənistan silahlıları Livan və Fələstindən gətirilmiş muzdlu döyüşçülərlə birlikdə Xocalıya girərək bütün şəhəri dağıdıb, günahsız, əliyalın insanları güllələbaran edib qocaları, uşaqları, qundaqdakı körpələri süngülərə keçirib insanları tankların altında əziblər. Bununla da tarixdə misli görünməyən barbarlıq və vandalizm törədiblər. Beləcə Ermənistan hərbi qüvvələri tarixin ən qanlı qətliamlarından və kütləvi insan qırğını olan Xocalı soyqırımını törədiblər.

Ermənistan silahlı qüvvələri beynəlxalq hüququ kobud şəkildə pozaraq Azərbaycan ərazisinin 20 faizini təxminən 30 il işğal altında saxlayıb. Ermənistan Azərbaycan torpaqlarını dağıdıb, dinc sakinləri kütləvi şəkildə məhv etməyə çalışıb. Bu işğalçı Ermənistanın ən ağır müharibə cinayətidir.

Bölgənin ötən 30 illik tarixi ermənilərin müharibə cinayətləri və terrorları ilə dolub daşır. Qarabağın hər qarışında erməni vandalizmi və cinayətlərinin izləri var. Fransa hökuməti Senat və Milli Assambleyası, ilk növbədə, Qarabağdakı erməni vəhşiliklərinə və erməni vandalizminə hüquqi qiymət verməlidir. Qarabağda azərbaycanlılara məxsus bütün qəbirlər dini və tarixi abidələr tamamilə dağıdılıb və yerləyeksan edilib. İşğal və vandalizm aktları nəticəsində Azərbaycan iqtisadiyyatına milyardlarla dollar həcmində maddi və mənəvi zərər dəyib. Ermənistan hökuməti bu maddi və mənəvi zərərin qarşılığını Azərbaycan dövlətinə və hökumətinə geri ödəməlidir. Fransa isə Ermənistanın cinayətlərinə haqq qazandırır. Erməni vəhşiliyi bütün dünya ictimaiyyətinə məlumdur. Ermənistan BMT Təhlükəsizlik Şurası tərəfindən işğalçı dövlət kimi tanınıb. Təhlükəsizlik Şurasının qətnamələri məcburidir və Fransa özü bu qurumun 5 daimi üzvündən biridir. BMT Nizamnaməsinə görə, Fransa da BMT Təhlükəsizlik Şurasının qərarlarına hörmət və icra etməyə borcludur. Amma Fransa hökuməti Senatı və Milli Assambleyası Azərbaycana qarşı qəbul etdiyi qərəzli və məkrli qətnamələrlə Ermənistanın cinayətlərinə və işğalçılıq siyasətinə dəstək verərək onlara şərik olur. Erməni təəssübkeşliyindən və ermənipərəstlikdən qaynaqlanan bütün anti-Azərbaycan xarakterli addımları ilə Fransa bölgədə sülhü və sabitliyi pozmağa çalışır. Fransa hökuməti Cənubi Qafqazda yeni münaqişə ocaqlarının alovlanmasına can atır. Bu ölkənin məqsədi Cənubi Qafqazda və xüsusən işğaldan azad edilmiş Azərbaycan ərazilərində növbəti təxribatların törədilməsidir. Qarabağı işğal etmiş separatçıların legitimliyini tanımaq separatizmi və terrorçuluğu dəstəkləməkdir. Fransa Qarabağda vaxtilə varlığını elan etmiş qondarma separatçı rejimin legitimliyini tanımaqla və separatçılara siyasi dəstək ifadə etməklə işğaldan azad edilmiş Azərbaycan torpaqlarına qarşı ermənilərin təxribatlar və hərbi cinayətlər törətməsinə zəmin hazırlayır. Bilavasitə Fransa özü qəsbkarlıq və işğalçılıq siyasəti yürüdür.

Bu qətnamələr Azərbaycana qarşı təsir və təzyiq məqsədi daşıyır. Açıq-aşkar görünür ki Fransada hüquq və qanunlar yox sifarişlər və xüsusilə ermənilərin istəkləri icra olunur. Qondarma və uydurma erməni soyqırımı layihəsinin də təşəbbüskarı ideya və ssenari müəllifi məhz Fransadır.

Fransa Milli Assambleyasının qətnaməsinə gəlincə, bu sənəd ikili standartlardan və ermənipərəstlikdən qaynaqlanır. Etnik separatizmə dəstək vermək ekstremizmi və terrorizmi dəstəkləməkdir.

"Biz bir daha Fransa Senatı və Milli Assambleyasının anti-Azərbaycan xarakterli qətnamələrini qətiyyətlə pisləyir bu qətnamələrin beynəlxalq hüququn və BMT Nizamnaməsi və qətnamələrinin əksinə olduğunu, bununla da beynəlxalq hüququn ağır şəkildə pozulduğunu ifadə edirik. Bildiririk ki Azərbaycan beynəlxalq qanunlarla tam haqlıdır və beynəlxalq hüquq Azərbaycanın tərəfindədir. Fransa Senatının və Milli Assambleyasının qəbul etdiyi qətnamə yalan və böhtan xarakterlidir və anti-Azərbaycan kampaniyasının və siyasətinin elementidir", - deyə açıqlamada bildirilir.

## Qatil müttəfiqlər

Müdriklərin dediyi kimi, insanlar iki yerə ayrılır: "Tanıdıqca böyüyənlər, tanıdıqca kiçilənlər". Ən pisi də odur ki, özünü böyük görsədib kiçik olasan və kiçik, bədnam hisslərlə yaşayıb, böyüklükdən dəm vurasan. İllərlə Ermənistanla aramızda müharibə getdi. Bunun nəticəsi olaraq Ermənistan əzəli və əbədi torpağımız olan Qarabağı işğal edib xarabazarlığa çevirdi. Bu da hamıya yaxşı məlumdur ki, Ermənistan bizimlə müharibəyə yalnız "öz ağlı" ilə başlamayıb.

Azərbaycanın müstəqilliyini gözü götürməyən, Cənubi Qafqazda ikinci bir qüdrətli türk dövlətinin yaranmasını arzulamayan güclər Ermənistanı bizimlə müharibəyə təhrik ediblər. Ermənistan Cənubi Qafqazda, xüsusilə təbii sərvətləri ilə zəngin, coğrafi mövqeyi olduqca əlverişli məkanda yerləşən Azərbaycanda gözü olan güclərin əlində həmişə oyuncaq bir vasitə olub. Bu morianet "dövlətdən" hərə öz məqsədi üçün ustalıqla istifadə edib. Bu da heç kimə sirr deyil ki, erməniləri qızışdırıb üstümüzə qaldıran, silah-sursatla və maddi cəhətdən təmin edən dövlətlər istədiklərinə nail olduqdan sonra şəraitə uyğun olaraq qiyafələrini dəyişib, problemin həllində "vasitəçi" olmağa çalışıblar. Bu "vasitəçilik"də də yeganə məqsəd Qarabağ problemini geosiyasi müstəviyə çıxarıb Ermənistanın xeyrinə həll etmək olub. 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ordusu Ermənistanın hərb maşınını darmadağın edib düşmən üzərində tam qələbə çaldıqdan sonra Ermənistanın dostları başladılar özlərinin əsl simalarını göstərməyə. Çünki artıq maskalanmaq mümkün deyildi.

Ermənistanı Azərbaycanla müharibəyə təhrik edənlərin erməni lobbisi qarşısında öhdəlikləri olub. Çünki onlar hakimyyətə erməni lobbisinin maddi dəstəyi ilə gəliblər... Fransa dövlətinin başçısından çox, erməni lobbisinin sözçüsünə çevrilmiş, daha doğrusu, erməni lobbisinin "əsiri" olmuş Emmanul Makron kimi...

Bildiyimiz kimi, keçmiş Minsk qrupunun həmsədrlərindən biri Fransa olub. Əslində, bu dövlətin Ermənistan-Azərbaycan münaqişəsinin böyüməsində müstəsna "xidmətləri" var. Azərbaycanın ərazilərinin işğal olunub tarixi mədəniyyət abidələrimizin dağıdılıb məhv edilməsində, bir milyona yaxın vətəndaşımızın öz yurd-yuvasından didərgin düşməsinin məsuliyyəti ermənilərlə yanaşı, Fransanın da üstündədir.

Fransa 44 günlük Vətən müharibəsi zamanı Azərbaycanın əleyhinə BMT-də qətnamə qəbul olunması üçün dəridən-qabıqdan çıxan dövlətdir. Biz bunu gördük və bu davranışı heç də unutmarıq! Onu da gördük ki, Azərbaycanın dostları özlərini "böyük" göstərən dövlətlərin istədiklərini gözlərində qoydular. Necə deyərlər, dostumuzu da gördük, düşmənimizi də. Bundan sonrakı proseslərdə düşmənimizi yaxşı tanıdığımız kimi dostumuzu seçmək də bizim doğal haqqımızdır. Çox təəssüf ki, özünü vasitəçi kimi danışıqlar prosesinə pərçim edən Fransa Prezidenti ədalətdən tamamilə uzaq düşüb. Vasitəçi olmaq üçün bir mənəvi haqq da olmalıdır. Birincisi, Fransa dövləti Ermənistan-Azərbaycan münaqişəsində vasitəçi kimi terrorçuluqda ad çıxaran, Qarabağda soyqırımı törədən Ermənistanı dəstəməklə, dünyada onların vəkili kimi çıxış etməklə özünü danışıqlar prossesindən təcrid etmiş oldu. İkincisi, Fransanın olduqca ləkəli bir keçmişi var.

Fransa ilə Ermənistan ruh əkizləridir. Bildiyimiz kimi, Ermənistan 1992-ci ildə Xocalıda soyqırımı törədib. Bir gecənin, bir neçə saatın içində silahsız, köməksiz, mühasirədə qalmış bir şəhərin sakinlərini məhv edib. Sağ qalanlara amansız işgəncə verib. Öldürdükləri insanların cəsədlərini tanınmaz hala salıblar. Eyni vəhşiliklərin daha çoxunu fransızlar Afrikada törədiblər. Fransızların Afrikada törətdikləri vəhşiliklərlə ermənilərin Xocalıda etdiklərini müqayisə edəndə cinayətləri, vəhşilikləri "eyni məktəbin yetirmələrinin" etdiyinin şahidi oluruq. Fransızlar Əlcəzairdə, Mərakeşdə, Tunisdə, Suriyada, Liviyada küçələri insan qanı ilə suvarmışlar. Təkcə Əlcəzairdə 10 milyondan çox insanı insanlığa sığmayan vəhşiliklə qətlə yetiriblər. Özünü "mələk" qismində göstərmək istəyən Fransa hələ bu gün də mənfur müstəmləkəçilik niyyətlərindən əl çəkməyib.

Bugünədək Karib dənizi sahillərində də müstəmləkələri var. Haiti və Fransa Qvianası, Guadeloupe və Martinique, Şərqi Afrikada isə Cibuti hələ də Fransanın əsarətindədirlər. Öz dinini, dilini zorla, qan tökməklə özündən gücsüzlərə qəbul etdirən, keçmişi qanlı, ləkəli, bu günü şübhəli olan Fransanın vasitəçilik azarına tutulması adamı heyrətləndirir.

Artıq Fransanın əleyhimizə qəbul etdiyi qətnamələr istehsal xarakteri alıb. Dünən yenə Milli Assambleyada əleyhimizə qətnamə layihəsi qəbul ediblər. Özü də "Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin hazırlanması üçün Fransa hökumətini Aİ və ABŞ-lə birgə fəaliyyət göstərməyə" çağırıblar. Paralel olaraq Fransa hökumətindən "Azərbaycan və Ermənistan arasında münasibətləri normallaşdırmaq məqsədilə Aİ səviyyəsində vahid mövqe nümayiş etdirilməsi üçün səyləri artırmaq" tələb olunur.

Bir deyən gərək, Fransa, otur oturduğun yerdə! Sənin səyin də, vasitəçiliyin də bizə lazım deyil. Sən dəfələrlə müsəlman qatili olduğunu sübut etmiş, əliqanlı qatilsən. Sən Ermənistanla qatil müttəfiqsiniz. Əlləriniz qana bulanıb. Yaxşısı budur ki, müsəlmanlara etdiyiniz vəhşiliklərə görə üzr istəyib yerinizdə farağat durasınız. Sizin tez-tez dəyişən simanızı Azərbaycan xalqı görür və yaxşı tanıyır.







*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*



# Heydər Əliyev ili 2023

## "Heydər Əliyev İli"nin vəzifələri və dərsləri

"Heydər Əliyev İli" - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü ilin "Heydər Əliyev İli" kimi qeyd olunması və "Heydər Əliyev İli"nin tədbirlər planını təsdiq etməsi haqqındakı sərəncamları Azərbaycanın müstəqillik tarixinin qüdrətli yaradıcısı və müstəqil Azərbaycan dövlətinin böyük qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin parlaq adı və xidmətləri ilə əlaqədar həyata keçirilməsi nəzərdə tutulan tədbirlərə start verilməsinə meydan açan mühüm əhəmiyyətə malik dövlət sənədidir.



"Heydər Əliyev İli" - Azərbaycanda müstəqil dövlətçiliyin dərsləri və təntənəsi ilidir.

"Heydər Əliyev İli" - müstəqil Azərbaycanın dövlət ideologiyası olan azərbaycançılıq ideyasının formalaşdırılması və daha da möhkəmləndirilməsi ilidir.

"Heydər Əliyev İli" - Azərbaycan Respublikasının keşməkeşli inkişaf yolunun və nailiyyətlərinin daha dərindən öyrənilməsi, Azərbaycana və dünyaya çatdırılması ilidir.

"Heydər Əliyev İli" - Azərbaycan dövlətçiliyinin çoxəsrlik tarixində xüsusi inkişaf mərhələsi olan Heydər Əliyev - İlham Əliyev epoxasının çətin və məsuliyyətli dünəninin, inkişaf etməkdə olan bu gününün və daha parlaq gələcəyinin ilidir.

"Heydər Əliyev İli" - müstəqil Azərbaycan dövlətinin keçdiyi şərəfli və məsuliyyətli inkişaf yolunun, əldə etdiyi nailiyyətlərin möhtəşəm hesabatı ilidir.

"Heydər Əliyev İli" - Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasının daha böyük sabahlara doğru inkişafının proqramı deməkdir.

"Heydər Əliyev İli" - Azərbaycan Respublikasında hər bir dövlət qurumunun, bütün vətəndaşların Ümummilli Liderin idealları qarşısında, müstəqil dövlətimiz qarşısında mənəvi-siyasi borcunu qürurla yerinə yetirməsi ilidir.

Azərbaycan Milli Elmlər Akademiyasının kollektivi də "Heydər Əliyev İli"ni Azərbaycan elminin və akademiyanın Ulu Öndər qarşısında hesabatı kimi qəbul edir.

"Heydər Əliyev İli"ndə Azərbaycan Milli Elmlər Akademiyası görkəmli dövlət xadimi və xalqımızın böyük xilaskarı, müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin nəsillərə nümunə olan tərcümeyi-halını və tarixi xidmətlərini dərindən, hərtərəfli şəkildə tədqiq edib öyrənərək monoqrafik tədqiqatlar, sanballı elmi əsərlər meydana qoyacaqdır.

Akademiya üçün "Heydər Əliyev İli" - müstəqil dövlətçilik uğrunda keçilmiş məsuliyyətli yolların dərslərini, keşməkeşlərini və möhtəşəm uğurlarını dünyaya çatdırmaq ilidir.

2023-2024-cü illərdə hazırlanması nəzərdə tutulan "Heydər Əliyev ensiklopediyası" "Heydər Əliyev İli"nin şah əsərlərindən biri olacaqdır.

Ölkəmizdə və dünya ölkələrində keçirəcəyimiz elmi konfranslar, simpoziumlar, sessiyalar, görüşlər, müzakirələr Heydər Əliyevçiliyin - azərbaycançılıq və müstəqil dövlətçiliyin dərslərinin araşdırılması və bəyan edilməsi ili kimi iz salacaqdır.

"Heydər Əliyev İli" - müstəqil Azərbaycan dövlətində bütün istiqamətlər üzrə, o cümlədən elm sahəsində də yeni inkişaf ili kimi qeyd olunacaqdır.

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin 6 dekabr 2022-ci il tarixdə keçirilməsi nəzərdə tutulmuş xüsusi iclasında akademiya üzrə həyata keçiriləcək tədbirlərin icrası ilə əlaqədar məsələlər, qarşıda duran vəzifələr müzakirə olunacaq və müvafiq qərarlar qəbul ediləcəkdir.

AMEA üçün "Heydər Əliyev İli" akademiyanı Ulu Öndərin adına və ideallarına layiq şəkildə yenidən qurmaq və inkişaf etdirmək ili olacaqdır.

*İsa HƏBİBBƏYLİ,*
*AMEA-nın prezidenti,*
*Milli Məclisin deputatı,*
*akademik*

## Orta dəhlizlə bağlı vahid strategiya hazırlanır

Azərbaycan, Qazaxıstan, Türkiyə, Gürcüstan və Özbəkistan Orta dəhliz adı ilə məşhur olan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə bağlı lazımi infrastruktur yaradılması və sənədləşmənin optimallaşdırılması məqsədilə vahid strategiya hazırlayırlar.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov jurnalistlərə açıqlamasında deyib ki, Orta dəhlizin əhəmiyyətini başa düşən bütün dövlətlər, xüsusilə də Orta Asiya ölkələri anlayırlar ki, burada infrastruktur ciddi əhəmiyyət kəsb edir: "İnfrastrukturu olan ölkələr Orta dəhlizdə aktiv işləyəcəkləri halda, infrastrukturu olmayanlar bu dəhlizdən yan keçəcəklər. Ona görə də Orta Asiya ölkələri, eləcə də qonşularımız infrastrukturun hazırlanması üçün ciddi işlər görürlər".

T.Ziyadov qeyd edib ki, Azərbaycan bu işləri ötən on il ərzində görüb. Ölkəmizin həm müasir limanı, həm də hava limanları və gəmiləri var: "Lakin bizim də görəcəyimiz işlər hələ də var və bu istiqamətdə müvafiq tapşırıqlar verilib. Növbəti mərhələdə qonşu dövlətlərlə infrastrukturun inteqrasiyası üzərində iş aparılacaq. Elə bir şərait yaradılmalıdır ki, bir konteyner bir ölkədən digərinə keçəndə həmin konteynerin başqa ölkədən keçdiyi hiss edilməsin".

Xatırladaq ki, 2014-cü ilin fevralında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılan Orta dəhliz layihəsinə sonradan Ukrayna, Rumıniya və Polşa da qoşulub. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Çin sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipi tətbiq olunur.

Orta dəhliz digərləri ilə müqayisədə daha operativ və maddi baxımdan sərfəli olduğuna görə bazarda qısa vaxtda rəğbət qazanıb. 2020-ci ilin dekabrından etibarən Türkiyədən Çinin Sian şəhərinə Orta dəhliz vasitəsilə Azərbaycan üzərindən konteyner qatarları göndərilir. Razılaşmalara görə təyinat nöqtəsinə 16 gündə çatan bu qatarlar ayda iki dəfə yola salınır. 2021-ci ilin əvvəlində Çində konteyner daşımalarının bahalaşmasına baxmayaraq, bu razılaşma hələ də dəqiq yerinə yetirilir.

Onu da qeyd edək ki, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Azərbaycanın nəqliyyat imkanları hesabına səmərəliliyini artırır. Xüsusilə vurğulamaq lazımdır ki, Orta dəhlizin tərkib hissəsi kimi Zəngəzur dəhlizinin perspektivləri də olduqca çoxdur. Mütəxəssislər qeyd edirlər ki, Zəngəzur dəhlizinin açılacağı təqdirdə region üzərindən daşınan yüklərin həcmi daha çox artacaq. Yəni Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutundan daha effektli istifadə üçün Zəngəzur dəhlizi yeni imkanlar yarada bilər.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Pakistan Hərbi Dəniz Qüvvələrinin komandanı Heydər Əliyev adına Hərbi İnstitut barədə məlumatlandırılıb

Pakistan İslam Respublikasının Hərbi Dəniz Qüvvələrinin komandanı admiral Muhammad Amcad Xan Niazinin ölkəmizə səfəri davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, dekabrın 2-də admiral M.A.X.Niazinin rəhbərlik etdiyi nümayəndə heyəti Heydər Əliyev adına Hərbi İnstitutu ziyarət edib. Qonaqlara hərbi təhsil müəssisəsinin yaranma tarixi, əsas fəaliyyət istiqaməti və tədris prosesi barədə brifinq təqdim edilib.



Pakistan Hərbi Dəniz Qüvvələrinin komandanı Hərbi İnstitutun "Fəxri qonaqlar kitabı"nı imzalayıb.

Sonra qonaqlar Heydər Əliyev adına Hərbi İnstitutun Hərbi Dəniz Qüvvələri fakültəsindəki tədris prosesi və burada şəxsi heyət üçün yaradılan şəraitlə tanış olublar. Daha sonra nümayəndə heyəti Hərbi Dəniz Qüvvələrinin "N" saylı hərbi hissəsini ziyarət edib. Əvvəlcə hərbi hissənin ərazisində şəhidlərin xatirəsinə ucaldılan abidə önünə gül dəstələri düzülərək ehtiram nümayiş etdirilib.

Qonaqlara hərbi hissənin fəaliyyəti, şəxsi heyətin hazırlıq prosesi və xidmət şəraiti haqqında ətraflı məlumat verilib.

Hərbi hissə ilə tanışlıqdan sonra dəniz piyadalarının istifadəsində olan silah və texniki vasitələrə baxış keçirilib.

Sonda hərbi hissənin ərazisindəki təlim poliqonunda sualtı hücum və sualtı müdafiə bölmələrinin dalğıclarının nümunəvi çıxışları nümayiş etdirilib.

*"Azərbaycan"*

## Azərbaycanın xarici işlər naziri bir sıra görüşlər keçirib

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun ATƏT-in Nazirlər Şurasının 29-cu iclası çərçivəsində Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ilə görüşü baş tutub.

Görüş zamanı Azərbaycanla Macarıstan arasında münasibətlərin strateji səviyyəsindən, hazırda bir sıra istiqamətlərdə ikitərəfli və regional əlaqələrin qarşılıqlı əsasda genişlənməsindən, yüksəksəviyyəli dialoqun və qarşılıqlı səfərlərin artmasından məmnunluq ifadə olunub.

Görüşdə iki ölkə arasında siyasi, ticarət-iqtisadi, energetika, kənd təsərrüfatı, mədəniyyət və təhsil sahələrində bir sıra layihələrin həyata keçirildiyi vurğulanıb, bu və digər istiqamətlərdə əlaqələrin daha da dərinləşməsinə dair ortaq maraqlar diqqətə çatdırılıb. Tərəflər həmçinin çoxtərəfli əməkdaşlıq platformaları, o cümlədən Türk Dövlətləri Təşkilatı çərçivəsində müsbət əməkdaşlıq dinamikasının gələcəkdə də davam etdirilməsinə razılıq bildiriblər.

Nazir C.Bayramov öz həmkarını Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi, eləcə də işğaldan azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri barədə məlumatlandırıb və Macarıstan tərəfinin işğaldan azad edilmiş ərazilərdə səylərə töhfə vermək niyyətinə görə minnətdarlığını bildirib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər mövzular müzakirə edilib, bütün mümkün platformalarda təmasları davam etdirmək qərara alınıb.

* * *

Azərbaycanın xarici işlər naziri Polşanın Lodz şəhərində keçirilən ATƏT-in Nazirlər Şurasının 29-cu iclası çərçivəsində Şimali Makedoniyanın xarici işlər naziri Bucar Osmani ilə görüşüb.

Görüş zamanı iki ölkə arasında müxtəlif sahələrdə ikitərəfli əməkdaşlıq əlaqələri, onların inkişaf imkanları, enerji təhlükəsizliyi, habelə Şimali Makedoniyanın ATƏT-də 2023-cü ildə sədrliyi çərçivəsində planlar və əməkdaşlıq perspektivləri müzakirə edilib.

Xarici işlər naziri Ceyhun Bayramov bölgədə hazırkı vəziyyət, Azərbaycan və Ermənistan arasında sülh gündəliyi, əlaqələrin normallaşması və bu sahədə Azərbaycan tərəfindən görülən işlər, habelə Ermənistan tərəfindən törədilən və qeyd edilən proseslərə xələl gətirən təxribatlar barədə həmkarını ətraflı məlumatlandırıb.

Ölkələr arasında mövcud əməkdaşlıq əlaqələrindən məmnunluq ifadə edən xarici işlər naziri Bucar Osmani Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəni yüksək qiymətləndirib. O, ATƏT çərçivəsində yaşanan çətinliklər nəzərə alınaraq, təşkilatın gücləndirilməsi istiqamətində fikirlərini bölüşüb.

Görüşdə qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Nazirlər Şurasının Lodzda keçirilən 29-cu iclası çərçivəsində Litva Respublikasının xarici işlər naziri Qabrielius Landsberqis ilə görüşüb.

İki ölkə arasında mövcud əməkdaşlıq gündəliyinin aktual məsələləri və regionda cari vəziyyət görüşün əsas müzakirə mövzusu olub. Azərbaycan ilə Litva arasında müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, təhsil, humanitar və digər sahələrdə faydalı əməkdaşlıq gündəliyinin mövcud olduğu qeyd edilib. Münasibətlərin inkişafında qarşılıqlı səfərlərin, siyasi dialoqun əhəmiyyəti vurğulanıb. Bununla yanaşı, Azərbaycanın Aİ ilə əlaqələri, bu çərçivədə görülən işlər müzakirə edilib.

Nazir Ceyhun Bayramov 44 günlük Vətən müharibəsindən sonra bölgədə yaranmış yeni reallıqlar, işğaldan azad olunmuş ərazilərdə postmünaqişə mərhələsində aparılan bərpa-quruculuq işləri, nəqliyyat kommunikasiyalarının açılması, eyni zamanda sülh gündəliyinin irəli aparılması istiqamətində Azərbaycan tərəfindən atılan addımlar barədə həmkarını ətraflı məlumatlandırıb.

Nazir Qabrielius Landsberqis Azərbaycan ilə Litva arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün potensialın mövcud olduğunu qeyd edib, bu potensialdan istifadənin vacibliyini vurğulayıb. Bölgədə enerji təhlükəsizliyi üzrə həyata keçirilən layihələrin əhəmiyyəti diqqətə çatdırılıb. Nazir Qabrielius Landsberqis Litvanın Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması prosesini dəstəklədiyini bildirib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Xarici işlər naziri ATƏT-in Nazirlər Şurasının 29-cu iclasında iştirakı çərçivəsində Yunanıstanın xarici işlər naziri Nikos Dendias ilə görüşüb.



Görüşdə ikitərəfli əməkdaşlıq gündəliyində duran bir sıra məsələlər, siyasi, iqtisadi, ticarət, energetika, humanitar və digər sahələrdə əlaqələr, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq barədə fikir mübadiləsi aparılıb.

Azərbaycanla Yunanıstan arasında son dövrlərdə artan təmasların, xüsusilə də bu il oktyabrın 1-də Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimi çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin Yunanıstanın Baş naziri Kiriakos Mitsotakis ilə görüşünün əhəmiyyəti vurğulanıb.

Nazir Ceyhun Bayramov həmkarına postmünaqişə mərhələsində yaranmış yeni reallıqlar, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesi, azad olunmuş ərazilərin bərpa və quruculuq işləri, habelə Ermənistanın proses çərçivəsində törətdiyi çətinliklər və maneələr barədə ətraflı məlumat verib.

Görüşdə həmçinin iki ölkə arasındakı münasibətlərin inkişaf etdirilməsində qarşılıqlı maraq ifadə olunub.

* * *

Dekabrın 2-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Nazirlər Şurasının 29-cu iclası çərçivəsində Yaponiyanın xarici əlaqələr üzrə dövlət naziri Şunsuke Takei ilə görüşüb.

Görüşdə bu il iki ölkə arasında diplomatik münasibətlərin 30 illiyinin qeyd olunduğu, coğrafi olaraq bir-birindən uzaqda yerləşməsinə baxmayaraq, Yaponiya ilə Azərbaycan arasında qarşılıqlı hörmət və etimad əsasında əməkdaşlıq əlaqələrinin qurulduğu vurğulanıb.

Görüşdə siyasi məsləhətləşmələr mexanizminin, habelə qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd olunub. İki ölkə arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə, habelə çoxtərəfli platformalarda əməkdaşlığın genişləndirilməsi perspektivləri ətrafında müzakirələr aparılıb. Bu xüsusda alternativ enerji mənbələrindən istifadənin potensialının artırılması, iri investorlar üçün münasib olan Ələt Azad İqtisadi Zonasına sərmayə qoyuluşu istiqamətində əməkdaşlıq imkanlarından bəhs edilib. İşğaldan azad olunmuş ərazilərdə Yaponiya şirkətlərinin quruculuq prosesində iştirakı təşviq olunub.

Nazir Ceyhun Bayramov həmkarına bölgədə mövcud cari vəziyyət, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması prosesi, Azərbaycan ərazilərinin 30 ilə yaxın davam edən işğalının nəticələrinin aradan qaldırılması istiqamətində ölkəmiz tərəfindən atılan əməli addımlar barədə məlumat verib. Nazir eyni zamanda ərazilərimizdə mövcud mina təhlükəsi, bunun yaratdığı ciddi humanitar fəsadlardan söz açıb.

Görüşdə tərəflər Yaponiyanın 2023-cü ildə BMT Təhlükəsizlik Şurasına üzvlüyü çərçivəsində mümkün əməkdaşlıq, həmçinin qlobal və regional aktual mövzular və təhdidlər ətrafında fikir mübadiləsi aparıb.

* * *

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Polşanın Lodz şəhərində keçirilən ATƏT-in Nazirlər Şurasının 29-cu iclasında iştirakı çərçivəsində İsveçrə Konfederasiyasının xarici işlər üzrə dövlət katibi Livia Leu ilə görüşüb.

Görüşdə Azərbaycan və İsveçrə arasında ikitərəfli münasibətlərin gündəliyinə daxil olan məsələlər, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, habelə regional təhlükəsizlik məsələlərinə dair müzakirə aparılıb.

Nazir Ceyhun Bayramov həmkarına Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin elementləri istiqamətində aparılan ikitərəfli danışıqlar və bundan irəli gələn məsələlər, kommunikasiyaların açılması və delimitasiya prosesi üzrə cari vəziyyət, habelə azad edilmiş ərazilərdə Azərbaycan hökuməti tərəfindən görülən işlər, o cümlədən ərazilərimizdə mina təhlükəsi barədə ətraflı məlumat verib.

Öz növbəsində dövlət katibi Livia Leu sülh müqaviləsinin elementləri üzrə aparılan danışıqların əhəmiyyət daşıdığını, İsveçrənin Azərbaycanla Ermənistan arasında sülh prosesinə bundan sonra da töhfə verməyə hazır olduğunu diqqətə çatdırıb.

Söhbət zamanı həmçinin digər qarşılıqlı maraq doğuran ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Dekabrın 2-də xarici işlər naziri Ceyhun Bayramov Polşanın Lodz şəhərində ATƏT-in Nazirlər Şurasının 29-cu iclasında iştirakı çərçivəsində Müqəddəs Taxt-Tacın xarici işlər üzrə dövlət katibi arxiyepiskop Pol Riçard Qallager ilə görüşüb.

Söhbət zamanı Azərbaycan-Vatikan münasibətlərinin yüksək səviyyəsi, ikitərəfli görüşlərin müntəzəmliyi razılıqla qeyd olunub.

Nazir Ceyhun Bayramov Azərbaycanın ölkələrimiz arasında olan münasibətlərə böyük əhəmiyyət verdiyini və bu xüsusda Azərbaycanın Vatikanda ayrıca səfirliyinin fəaliyyətə başlayacağını qeyd edərək, bunun əməkdaşlığın daha da inkişafına xidmət göstərəcəyinə əminliyini bildirib.

Nazir həmçinin qarşı tərəfə 44 günlük Vətən müharibəsindən sonrakı vəziyyət, eləcə də işğaldan azad edilmiş ərazilərimizdə təbiətə qarşı törədilmiş cinayətlər, vandalizm və dağıdılmış mədəni, dini irs barədə ətraflı məlumat verib. Azərbaycanın azad edilmiş ərazilərimizdə infrastrukturun, nəqliyyat-kommunikasiya xətlərinin bərpasını həyata keçirdiyi qeyd edilib. Bununla yanaşı, Ermənistanın törətdiyi və davam edən mina təhdidləri və digər təxribatları barədə müfəssəl məlumat verilib. 1990-cı illərin əvvəllərindən 3800-dən çox itkin düşmüş azərbaycanlı barədə hələ də məlumat olmadığı diqqətə çatdırılıb.

Müqəddəs Taxt-Tacın xarici işlər üzrə dövlət katibi Pol Riçard Qallager Ermənistan-Azərbaycan arasında münasibətlərin normallaşacağına və sülhün bərpa olunacağına ümid etdiyini bildirib. O, Azərbaycanın Vatikanda səfirliyinin açılmasının vacib addım olduğunu, əlaqələrin daha da genişlənməsi üçün səylərin artırılmasının zəruriliyini vurğulayıb.

Görüşdə həmçinin Azərbaycanın Vatikanın tarixi yerlərinin bərpasında iştirakı məmnunluqla qeyd edilib və bunun mədəniyyətlərarası dialoqa bir töhfə kimi qiymətləndirildiyi diqqətə çatdırılıb.

* * *

Dekabrın 2-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Polşanın Lodz şəhərində ATƏT-in Nazirlər Şurasının 29-cu iclasında iştirakı çərçivəsində ATƏT Parlament Assambleyasının (PA) prezidenti Marqarita Sederfelt ilə görüşüb.

Görüşdə Azərbaycan və ATƏT PA arasında əlaqələrin inkişaf perspektivləri, ATƏT PA gündəliyində duran məsələlər, habelə regionda baş verən ən son proseslər, ATƏT PA-nın Azərbaycan-Ermənistan normallaşma prosesinə mümkün töhfələri ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov ATƏT PA prezidentinə bölgədə mövcud olan cari vəziyyət, o cümlədən işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işləri, mina təhdidləri, habelə Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində Azərbaycan tərəfindən atılan addımlar barədə məlumat verib. O, Ermənistanın təxribatlarına və prosesləri ləngitmək siyasətinə baxmayaraq, bölgədə sülh və sabitliyin təmin edilməsi üçün bütün vacib istiqamətlər üzrə, o cümlədən gələcək sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası, bütün kommunikasiyaların açılması və digər məsələlərdə Azərbaycanın səylərini davam etdirəcəyini bildirib.

Marqareta Sederfelt ATƏT PA-nın Azərbaycanla əməkdaşlığa böyük əhəmiyyət verdiyini qeyd edib, həmçinin regionda sülhün və təhlükəsizliyin təmin olunmasının vacibliyini vurğulayıb. Bu xüsusda ATƏT PA-nın sülh prosesini dəstəkləmək üçün parlamentlərarası dialoqu təşviq etməyə hazır olduğunu ifadə edib.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Lodz şəhərində ATƏT-in Nazirlər Şurasının 29-cu iclasında iştirakı çərçivəsində ATƏT-in baş katibi Helqa Şmid ilə görüşüb.

Görüş zamanı Azərbaycan ilə ATƏT arasında ikitərəfli əməkdaşlıq gündəliyinin müxtəlif aspektləri, ATƏT çərçivəsində mövcud problemlər, habelə regionda baş verən ən son proseslər müzakirə edilib.

Nazir Ceyhun Bayramov Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində ölkəmiz tərəfindən atılan addımlar, danışıqlar prosesi və iki ölkə arasında sərhədlərin delimitasiyası üzrə hazırkı vəziyyət, ərazilərin minalardan təmizlənməsi kimi məsələlər barədə tərəf-müqabilini məlumatlandırıb.

Ermənistan tərəfinin danışıqlar prosesinə törətdiyi maneələr, öhdəlikləri kobud şəkildə pozması, eləcə də törətdiyi mina təxribatları diqqətə çatdırılıb. Mina təhdidinin aradan qaldırılması və bir sıra digər istiqamətlərdə ATƏT tərəfindən layihələrə dəstək verilməsinin zəruriliyi vurğulanıb.

Görüşdə tərəflər qarşılıqlı maraq doğuran digər regional və qlobal məsələləri müzakirə ediblər.




# Qələbə yetmədi

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 1 | Portuqaliya | 3 | 2 | 0 | 1 | 6-4 | 6 |
| 2 | Cənubi Koreya | 3 | 1 | 1 | 1 | 4-4 | 4 |
| 3 | Uruqvay | 3 | 1 | 1 | 1 | 2-2 | 4 |
| 4 | Qana | 3 | 1 | 0 | 2 | 5-7 | 3 |

*Dünən mundialda qrup mərhələsinə yekun vurulub. H qrupunda mübarizə aparan və ardıcıl iki qələbə ilə 1/8 finala vəsiqəni təmin edən Portuqaliya Cənubi Koreya ilə üz-üzə gəlib. Görüşdə qalib tərəf C.Koreya yığması olub-2:1.*

Cənubi Koreya yığması buna qədər 9 dəfə dünya çempionatlarında çıxış edib. Ləqəbi "Asiya pələngləri", "döyüşçülər" olan yığmanın ən yaxşı göstəricisi 2002-ci ildəki mundiala təsadüf edir. Yaponiya ilə birlikdə turnirə evsahibliyi edən Cənubi Koreya yığması 4-cü yeri tutub. "Asiya pələngləri" ümumilikdə mundialın final mərhələlərində 34 oyunda 6 qələbə qazanıb, 19 dəfə məğlub olub. Vurulan qolalr 34, buraxılan isə 70-dir.

Asiya təmsilçisinin heyətinin dəyəri 164,48 milyon avrodur. Komandanın ən bahalı oyunçusu Son Hın Mindir. "Tottenhem"də çıxış edən hücumçunun qiyməti 70 milyon avrodur. Yığmanı portuqaliyalı mütəxəssis Paulo Bento çalışdırır.

Ləqəbi "səyahətçilər" olan Portuqaliyanın dünya çempionatlarında ən böyük uğuru 1966-cı ildə qeydə alınıb. Milli Meksikanın evsahibliyi etdiyi turniri 3-cü sırada bitirib. "Səyahətçilər"in mundiallardakı növbəti uğuru 2006-cı ildə olub. Almaniyada baş tutan yarışda yığma 4-cü yeri tutub.

Millinin heyətinin dəyəri 937 milyon avrodur. Komandada Kriştiano Ronaldu, Bernardo Silva, Joao Feliks, Rafael Leao, Bruno Fernandeş kimi ulduz futbolçular yer alır. Komandanın ən dəyərli oyunçusu Leaodur. "Milan"da çıxış edən hücumçunun dəyəri 85 milyon avrodur. Milli komandanın bombardiri Ronaldudur. Yığmanı Fernando Santos çalışdırır.



Qrupun digər matçında Qana ilə Uruqvay qarşılaşıb. Matç uruqvayların 2:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Beləliklə, yekunda çox top vurduğuna görə C.Koreya seçməsi Uruqvayı üstələyərək adını 1/8 finala yazdırıb.

Ləqəbi "qara ulduzlar" olan Qana buna qədər 3 dəfə dünya çempionatlarında iştirak edib. Ən böyük uğur 2010-cu ildə Cənubi Afrikada keçirilən mundialda qeydə alınıb. Milli həmin dünya çempionatını 7-ci sırada tamamlayıb. Millinin heyətinin dəyəri 216,90 milyon avrodur. Komandanın ən bahalı oyunçusu Tomas Parteydir. "Arsenal"da forma geyinən yarımmüdafiəçinin qiyməti 38 milyon avrodur.

Uruqvay millisi isə dünya çempionatları tarixinin ilk qızıl medalçısıdır. "Səma-mavilər" 1930-cu ildə ev sahibi olduğu ilk mundialın finalında Argentinanı məğlub edərək birinci çempion olub. Komanda ümumilikdə 2 dəfə Dünya çempionu adını qazanıb. 1950-ci ildə keçirilən yarışda həlledici matçda ev sahibi Braziliyadan üstün olaraq kubokun sahibi olub.

Uruqvay millisinin heyətinin dəyəri 449,70 milyon avrodur. Komandanın ən bahalı futbolçusu Federiko Valverdedir. "Real"da forma geyinən yarımmüdafiəçinin qiyməti 100 milyon avrodur. Uruqvayda "Liverpul"lu Darvin Nunyes, sabiq "Barselona"lı Luis Suares, PSJ-nin keçmiş forvardı, hazırda "Valensiya"da çıxış edən Edinson Kavani kimi ulduz oyunçular yer alırlar. Millini Dieqo Alonso çalışdırır.

| Ötən günün nəticələri | |
|---|---|
| **H qrupu** | |
| C.Koreya- Portuqaliya | 2:1 |
| Qana- Uruqvay | 0:2 |
| **G qrupu** | |
| Serbiya- İsveçrə | 2:3 |
| Kamerun- Braziliya | 1:0 |

**3 dekabr təqvimi**

**1/8 FİNAL**

Niderland- ABŞ (19:00)

Argentina- Avstraliya (23:00)

## "Bu, yalnız bizim günahımızdır"



Almaniya millisinin baş məşqçisi Hans-Diter Flik "DÇ-2022"nin qrup mərhələsinin 3-cü turunda Kosta Rikaya qalib gəldikləri matç (4:2) haqqında danışıb. Almanlar qalibiyyətə baxmayaraq, Yaponiyanın İspaniyanı üstələməsinə (2:1) görə qrupda qalıb. Flik isə Kosta Rika ilə matçdan sonra deyib: "Çox məyus oldum. Kosta Rika ilə oyunda 16 qol şansımız oldu. Təəssüf ki, ilk hissədə yaxşı nəticə əldə edə bilmədik. Halbuki üç-dörd qol vurmalı idik. Bu, oyuna təsir edəcəkdi, amma biz bacarmadıq. Çox əsəbiləşdim və bu barədə iradımı komandaya çatdırdım. Bəli, sonda öz borclarını yerinə yetirdilər, qalib gəldilər, amma daha yaxşı çıxış edə bilərdilər. Getməyimizə Dünya çempionatındakı digər oyunlarımızın nəticələri səbəb oldu. Və bu yalnız bizim günahımızdır". Flik istefa edib-etməyəcəyi ilə bağlı verilən sualı da cavablandırıb: "Vidalaşdığımız oyundan sonra belə suala cavab vermək çətindir. Yaxın zamanda nə olacağını görəcəyik".

Almaniya cari mundialda ilk iki görüşdə Yaponiyaya uduzub (1:2), İspaniya ilə isə heç-heçə edib (1:1). E qrupundan 1/8 finala Yaponiya və İspaniya adlayıb.



## 24 ildən sonra

Belçika millisi 24 il sonra ilk dəfə Dünya çempionatlarında qrup mərhələsini keçə bilməyib. Yığma "DÇ-2022"nin qrup mərhələsinin 3-cü turunda Xorvatiya ilə heç-heçə edib. Mərakeş isə digər oyunda Kanadaya qalib gəlib. Nəticədə F qrupundan Mərakeş lider, Xorvatiya isə 2-ci yerin sahibi kimi 1/8 finala adlayıb. Belçika 3-cü yeri tutub və qrupda qalıb. Belçika yığması sonuncu dəfə 1998-ci ildə Fransada keçirilən Dünya çempionatında qrupdan çıxmamışdı. Komandanın tarixdəki ən yaxşı nəticəsi 2018-ci ildə Rusiyada keçirilən Dünya çempionatının bürünc medalını qazanmasıdır.



## Daliç meydan oxudu

"Mən əsl müharibə gözləyirdim, çünki Belçika ardıcıl üç matçda pis oynaya bilməzdi. Çox ləyaqətli görünürdük və birinci hissəni əla keçirdik. Təmiz penalti qazandıq, VAR yenə əleyhimizə işlədi. Amma bu, bizi sındırmadı. Belçikanın qol epizodlarının olacağını bilirdik. Şans sonda bizə gülümsədi". Bu sözləri Xorvatiya millisinin baş məşqçisi Zlatko Daliç qrup mərhələsinin 3-cü turunda Belçika ilə qolsuz bərabərə qaldıqları oyundan sonra deyib.

O bildirib: "1/8 finalda kiminlə oynayacağıq? Kiminlə qarşılaşacağımız bizi maraqlandırmır, Belçika ilə oynadığımız kimi oynasaq, heç kimdən qorxmuruq".

Qeyd edək ki, Xorvatiya F qrupunu 5 xalla 2-ci pillədə başa vurub.

## Martinez də getdi



Belçika millisinin baş məşqçisi Roberto Martinez vəzifəsindən istefa verib. Qol.az xəbər verir ki, bu barədə 49 yaşlı mütəxəssis özü açıqlama verib. Martinezin komandası qrup mərhələsinin 3-cü turunda Xorvatiya ilə qolsuz heç-heçə edib. Nəticədə Belçika 1/8 finala adlaya bilməyib. Martinez isə görüşdən sonra açıqlamasında vəzifəsindən istefa verdiyini bildirib: "Bu, komanda ilə son oyunum idi. Emosional andır. Mən davam edə bilmərəm. Futbolçular və heyətlə sağollaşdım. Dünya çempionu olsaq da, gedəcəkdim. Bu qərarı "DÇ-2022"dən əvvəldən vermişəm".

Roberto Martinez 2016-cı ilin yayından Belçika millisini çalışdırırdı.

## De Byazi favoritini açıqladı



Milli komandamızın baş məşqçisi Canni De Byazi "DÇ-2022" haqda danışıb. İtaliyalı mütəxəssis ölkəsinin mətbuatına açıqlamasında azarkeşlik etdiyi komandanın İspaniya olduğunu bildirib: "Mənim favoritim? Sensasiyalı nəticələri nəzərə almasaq, İspaniya ən çox inandığım komandadır".

De Byazi 9 yaşında qızı dünyasını dəyişən İspaniya millisinin baş məşqçisi Luis Enrikenin bir mükafata layiq olduğunu bildirib: "Həyatın ondan aldığı şeylərdən sonra bu turniri qazana bilsəydi, çox sevinərdim. Yəni Tanrı digər əli ilə ona bir şey qaytarardı".

Yığmamızın baş məşqçisi İtaliya millisinin mundialdan kənarda qalması haqda da danışıb: "İtaliya uğursuzdur. Avropa çempionluğunu qazanmış komandanın ardınca iki Dünya çempionatından kənarda qalmasını düşünmək anormal bir şeydir".

## Messiyə mərcdə uduzan Şensnı

Polşa millisinin qapıçısı Voyçex Şensnı qrup mərhələsinin sonuncu turunda Argentinaya qarşı matçda (0:2) penalti təyin olunduğu epizodla bağlı danışıb. O bildirib ki, həmin an 35 yaşlı hücumçuya penaltinin təyin olunmayacağı ilə bağlı mərc təklif edib: "Messi ilə nə danışdım? Dedim ki, hakimin penalti təyin etməyəcəyinə 100 avrodan mərc edirəm. Buna görə də Messi ilə mərcdə uduzdum. Bilmirəm, buna icazə verilib, yoxsa yox? Bəlkə də cərimələnəcəm. Mən ona pul vermək fikrində deyiləm. Messinin kifayət qədər pulu var".

Xatırladaq ki, 39-cu dəqiqədə Messinin yerinə yetirdiyi penaltini Şensnı dəf edib.





## "Komanda şəklində oynadıq və qazandıq"

Yaponiya millisinin baş məşqçisi Hacime Moriyasu Dünya çempionatının qrup mərhələsinin 3-cü turunda İspaniyanı məğlub etdikləri oyundan sonra fikirlərini bildirib. Mütəxəssis 2:1 hesabı ilə qalib gələrək lider kimi 1/8 finala yüksəlmələri haqda bunları deyib: "Komanda şəklində oynadıq və qazandıq. Kosta Rikanın qollarından sonra daha da həyəcanlı idik. Bərabərliyin də bizə sərf edəcəyini bilirdik. Amma qələbə istədik və bunu bacardığımız üçün xoşbəxtik. Tribunalarda bizi dəstəkləyənləri görmək çox gözəldir. Bu zəfər onlar üçündür. Biz qələbəmizi Yaponiya xalqına və Asiyaya həsr edirik. Öyrənəcəyimiz çox şey var".

Yaponiya mundialın 1/8 finalında Xorvatiya ilə qarşılaşacaq.

## Seneqal millisi cərimələndi

FİFA-nın İntizam Komitəsi Seneqal Futbol Federasiyasını cərimələyib. Bu barədə qurumun rəsmi saytı məlumat yayıb. FİFA-nın belə qərar qəbul etməsinə səbəb Seneqal millisinin media ilə bağlı reqlamentin müddəalarını pozması olub.

Qanun pozuntusu Seneqal millisinin oyunçusunun qrup mərhələsinin 3-cü turunda Ekvadorla oyundan (2:1) əvvəl keçirilən mətbuat konfransında iştirak etməməsi ilə əlaqədardır. Komandanın baş məşqçisi Aliou Sisse mətbuat konfransında futbolçuların iştirak etməməsini belə izah edib: "Heç olmasa, bir futbolçunun oyundan əvvəl 3 saat yolda qalmasını istəmirəm".

Buna görə də Seneqal Futbol Federasiyası 10 min İsveçrə frankı (10 min 162 avro) məbləğində cərimələnib.



## Luis Enrikedən məğlubiyyət şərhi



İspaniya millisinin baş məşqçisi Luis Enrike Dünya çempionatının qrup mərhələsinin sonuncu turunda Yaponiyaya qarşı keçirdikləri oyundan sonra fikirlərini bildirib. Çalışdırıcı 1:2 hesabı ilə uduzduqları görüşlə bağlı bunları deyib: "Xoşbəxt deyiləm, çünki uduzduq. Buna görə sevinə bilmərəm. Birinci olmaq və növbəti mərhələyə adlamaq istəyirdik. Yaponlar bizi keçib lider oldular. Fasilədə oyunçulara diqqətli olmalarını tapşırmışdım. İkinci hissə başlayan kimi çökdük".

İspaniya millisi E qrupunu 2-ci sırada bitirib və 1/8 finala vəsiqə əldə edib.

***Hazırladı: Elçin CƏFƏROV, "Azərbaycan"***

# *MN:* "Rusiya sülhməramlılarını yaşayış məntəqələrimizi düzgün toponimlərlə ifadə etməyə çağırırıq"

Bir daha təəssüflə bildiririk ki, Rusiya Federasiyasının sülhməramlı kontingentinin rəsmi məlumatlarında Azərbaycan ərazilərinin adları hələ də uydurma erməni toponimləri ilə qeyd olunmaqdadır.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuata açıqlamasında qeyd edilib. "Bu yanlış ifadələrin istifadə olunmaması ilə bağlı tərəfimizdən dəfələrlə edilən müraciətlərə etinasız yanaşılması isə, ümumiyyətlə, anlaşılan deyil.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi bir daha israrla bildirir ki, yaşayış məntəqələrimizin adlarının düzgün qeyd olunmaması, habelə "Dağlıq Qarabağ ərazisi" ifadəsinin işlənməsi YOLVERİLMƏZDİR.

Rusiya Federasiyasının Müdafiə Nazirliyinin rəsmi internet səhifəsində dərc olunan Rusiya Federasiyasının sülhməramlı kontingentinin 2022-ci il 2 dekabr tarixli rəsmi məlumatında "Dağlıq Qarabağ ərazisi" kimi qeyd olunan ərazinin Qarabağ iqtisadi rayonu, "Mardakert" və "Martuni" kimi adlandırılan Azərbaycan yaşayış məntəqələrinin rəsmi adlarının isə müvafiq olaraq AĞDƏRƏ və XOCAVƏND olduğunu bir daha xatırladırıq.

Azərbaycan Respublikası ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin komandanlığını müvafiq məlumatlarında ölkəmizin ərazisindəki yaşayış məntəqələrinin adlarını düzgün toponimlərlə ifadə etməyə çağırırıq", - deyə məlumatda vurğulanıb.

# Qarabağın ulduzu və ya zirvədən uca ŞUŞA

## Şuşa şəhərinə həsr olunmuş kitabların təqdimatı olub

"Şuşa Azərbaycan mədəniyyətinin formalaşmasında xüsusi rolu olan şəhərdir. Onun hər küçəsi, hər evi, hər dalanı tariximizin bir parçasıdır. Şuşa şəhərinin qədim tarixi, mədəni həyatı, maddi-mədəni abidələri, işğal dövründə məruz qaldığı dağıntılar və azadlığa qovuşmasını əks etdirən məlumat və fotolar Azərbaycan-ingilis və Azərbaycan-rus dillərində hazırlanan kitablarda dolğun şəkildə öz əksini tapıb".




AZƏRTAC xəbər verir ki, bu sözləri dekabrın 2-də Beynəlxalq Muğam Mərkəzində "Şuşa. Zirvədən uca" və "Şuşa. Qarabağın ulduzu" adlı kitabların təqdimat mərasimində mədəniyyət naziri Anar Kərimov deyib.

Qeyd edilib ki, hər iki kitab "Şuşa ili" çərçivəsində Mədəniyyət Nazirliyi və "PAŞA Həyat Sığorta" ASC-nin dəstəyi ilə "İRS" nəşriyyat evi tərəfindən çap olunub.

"Bu gün çox önəmli kitabların təqdimatını keçiririk. Kitabların ərsəyə gəlməsinin əsas səbəbi Prezident İlham Əliyev tərəfindən bu ilin "Şuşa ili" elan olunması ilə bağlıdır. Şuşa şəhəri Azərbaycan dövlətçiliyi, mədəniyyəti və tarixi üçün xüsusi önəm kəsb edir. Ona görə də şəhər addım-addım, küçə-küçə yenidən canlanır, daha gözəl və füsunkar görkəm alır. Təqdim olunan kitablar bu qəbildən böyük əhəmiyyət daşıyır", - deyə nazir vurğulayıb.

Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli, "İRS" jurnalının baş redaktoru Musa Mərcanlı və "PAŞA Həyat Sığorta" ASC-nin İdarə Heyətinin sədri Niyaz İsmayılov kitabın ərsəyə gəlməsini böyük töhfə kimi dəyərləndiriblər. Qeyd olunub ki, mədəniyyət beşiyi Şuşaya həsr olunan belə nəşrlər Qarabağ tarixinə güzgü tutan maddi-mədəni abidələrimizin gələcək nəsillərə çatdırılması baxımından böyük əhəmiyyət kəsb edir.

Təqdimat mərasimində "İrs" və "Azerbaijan Airlines" jurnallarının baş redaktoru Musa Mərcanlıya "Şuşa-270" döş nişanı verilib.

Tədbir bədii hissə ilə davam edib.

# Fransada tətillər dalğası səngimir

## İndi də ölkədə həkimlər narazılıq edirlər

**Fransada özəl praktika həkimlərinin ofisləri iki gündür bağlıdır. Bunun səbəbi səhiyyə işçilərinin tibbi sığorta fondunun baza tarifini iki dəfə artırmaq tələbi ilə tətilə çıxmalarıdır.**



Son iki onillikdə 110 minə yaxın ümumi praktika və özəl praktika həkimlərini birləşdirən peşəkar təşkilatları həmkarlar ittifaqlarının köməyi ilə görünməmiş hərəkat elan ediblər. Parisdə dövlət klinikalarının psixiatrları da işçi və dərman çatışmazlığından şikayət edərək etiraz aksiyası keçiriblər. Laboratoriyaların işçiləri də onlara qoşulublar. Reagentlərə də pul yoxdur. Həkimlər də maaşların artırılmasını tələb edirlər. Biotibbi Alyansın prezidenti Alen Le Mer deyir: "Biz hökumətə dörd il müddətinə 685 milyon avro ayırmağı təklif etmişik. Bu, bizim üçün çox vacib olan və ondan kənara çıxa bilməyəcəyimiz maliyyə planıdır. Bizim üçün bu, yaşamaq məsələsidir. Əks halda, ən azı 400 laboratoriyanı bağlamaq məcburiyyətində qalacağıq".

Bioloqlar İttifaqının prezidenti Fransua Blanşekott da çox narahatdır: "Fransa iki həftədir tətil edir. İndi təsəvvür edin ki, bu, dekabrın sonunda bütün dövlət sisteminin iflicinə gətirib çıxaracaq!"

Fransada bütün həkimlərin dövlət tibbi sığorta fondu ilə müqaviləsi var. Xəstələr yalnız özəl provayderin tarifi ilə sözügedən xidmət üçün tibbi sığorta fondu tərəfindən müəyyən edilmiş tarif arasındakı fərqi ödəməlidirlər. Həkim konsultasiyasının baza qiyməti hazırda 25 avrodur və tətilin təşkilatçıları Avropada orta göstəricinin 45 avro olduğunu əsas gətirərək bu məbləğin iki dəfə artırılmasını tələb edirlər. Bildirilir ki, 100 faizlik artım gənc həkimləri ailə praktikasına cəlb edərdi və beləliklə, özlərini idarə etdiyi üçün bütün inzibati vəzifələr onların üzərinə düşərdi.

Tətil ciddi etirazlarla müşayiət olunur. Gün ərzində Parisdə və digər şəhərlərdə əlliyə yaxın yürüş keçirilib. Parlamentin kənd yerlərində həkim çatışmazlığını azaltmağa yönəlmiş bir sıra qanunlar qəbul etməsindən də həkimlər narahatdırlar. Tibb mütəxəssisləri hiss edirlər ki, klinikaları harada açacaqlarını seçmək azadlığı məhdudlaşır.

Fransanı bürüyən sosial etiraz sentyabrın 27-də TotalEnergies və Esso-ExxonMobil transmilli energetika qruplarının müəssisələrindən başlayıb. Bu şirkətlərin işçiləri inflyasiyanın sürətlə artması fonunda maaşların ən azı 10 faiz artırılmasını tələb ediblər.

Sonradan tətillərə nəqliyyatçılar, təhsil, ümumi praktika həkimləri və kommunal sektorun əməkdaşları da qoşulub. Avtomobil nəqliyyatı işçilərinin tətili Fransanın ən böyük həmkarlar ittifaqı olan Ümumi Əmək Konfederasiyasının (CGT) çağırışı ilə keçirilib. Həmkarlar ittifaqı mərkəzləri yüksək inflyasiya fonunda sənayedə çalışan işçilərin maaşlarının artırılması tələbilə çıxış ediblər.

Oktyabrda neft emalı zavodlarında tətilin sona çatması ilə bağlı qısamüddətli sakitlikdən sonra yanacaqdoldurma məntəqələrində həyəcan dalğası yenidən Fransanı bürüyüb. Ölkənin demək olar, bütün iri şəhərlərində ictimai nəqliyyatın işində fasilələr yaranıb. Parisdə onlarla metro və şəhərətrafı qatar stansiyaları bağlanıb.

Çoxsaylı həmkarlar ittifaqları baş verən hadisələrin etirazın yalnız başlanğıcı olduğunu və xüsusən də işçilərin tələbləri eşidilməzsə, ictimai hərəkatın yaxın həftələrdə və aylarda genişlənəcəyini bildiriblər.

Paris və Fransanın digər şəhərlərində küçələrə çıxan işçilər maaşların artırılması, iş şəraitinin yaxşılaşdırılması, xüsusən də pensiya islahatları ilə bağlı Prezident Emmanuel Makronun administrasiyasına təzyiqlərin artırılmasını tələb ediblər.

Son aylarda Fransa hökuməti inflyasiyanın qarşısını ala bilmir. Milli Statistika və İqtisadi Tədqiqatlar İnstitutunun (Insee) ekspertlərinin hesablamalarına görə, ərzaq məhsulları 12 faizə qədər bahalaşıb. Enerji təchizatının dəyəri də nəzərəçarpacaq dərəcədə - təxminən 20 faiz artıb.

Fransa Bankının (mərkəzi bank) prezidenti Fransua Vilerua de Qalo ölkədə inflyasiya səviyyəsinin ilin sonuna qədər daha da yüksələcəyi ilə bağlı xəbərdarlıq edib. Təbii ki, bütün bu amillər xalqda ciddi narahatlıq, təşviş və etiraz doğurur.

Ölkədə digər peşə sahiblərinin də iştirakı ilə növbəti tətillər üçün çoxsaylı çağırışlar eşidilir. Fransız xalqının daxili və xarici siyasətdə səriştəsizliyini sübut etmiş iqtidara qarşı etirazı gündən-günə genişlənir.

*Rizvan HİLALOĞLU,*
*"Azərbaycan"*





# OXUCULARIN NƏZƏRİNƏ!

*"Azərbaycan" qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*


# *ANAMA:* "Ötən ay 1735 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib"

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən icra olunan əməliyyatlar barədə aylıq məlumatı açıqlayıb.




ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, noyabrın 1-dən 30-dək Tərtər, Kəlbəcər, Ağdam, Xocalı, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 782, tank əleyhinə 344 mina və 1735 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən ay ərzində 2522,6 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# Paytaxtda arabir yağış yağacağı gözlənilir

Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb.




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasının bəzi yerlərində gün ərzində arabir yağış yağacağı gözlənilir. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 5-7° isti, gündüz 7-9° isti olacaq. Atmosfer təzyiqi 770 millimetr civə sütunundan 774 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində arabir yağış, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-6°, gündüz 6-9° isti, dağlarda gecə 3-8°, gündüz 0-3° şaxta olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında bəzi yerlərdə gün ərzində arabir yağış, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 6-11° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində gün ərzində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-6° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarının bəzi yerlərində gün ərzində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-7° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacağı ehtimal edilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-5°, gündüz 5-8° isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində arabir yağış, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 3-6° isti, dağlarda gecə 3-7°, gündüz 0-3° şaxta olacağı gözlənilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarının bəzi yerlərində arabir yağış yağacağı ehtimal edilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı gözlənilir. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2-6°, gündüz 6-9° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə intensivləşəcəyi, dağlıq ərazilərdə qar yağacağı proqnozlaşdırılır. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 4-6°, gündüz 6-9° isti, dağlarda gecə 1° şaxtadan 3°-dək isti, gündüz 3-5° isti olacağı bildirilir.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**


# ALLAH RƏHMƏT ELƏSİN!

İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Emil Əhmədova atası

**RASİM ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin baş mütəxəssisi Elşad Qədirova qardaşı

**AKİF MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 6484
Sifariş 3387
Qiyməti 40 qəpik